№002 29.01.2015 Qəzet 2014-cü il dekabrın 25-dən çıxır

# Ümid

"იმედი" – დამოუკიდებელი გაზეთი

Müstəqil qəzet



## Davosda Gürcüstanın Baş Naziri Azərbaycan prezidenti ilə görüşüb

Gürcüstanın Baş Naziri İrakli Qaribaşvili Azərbaycan prezidenti İlham Əliyevi Tiflisə səfərə dəvət edib. Bu barədə Gürcüstan Baş Nazirinin mətbuat xidmətinin yaydığı məlumatda bildirilir.

Qeyd olunur ki, İ. Qaribaşvili Azərbaycan prezidenti ilə Davos İqtisadi Forumu çərçivəsində görüşüb. Görüş zamanı tərəflər iki ölkə arasındakı əlaqələrin inkişafını və strateji əməkdaşlıq məsələlərini müzakirə ediblər.



Gürcüstan Prezidenti Georgi Marqvelaşvili yanvarın 27-də Holokost faciəsi qurbanlarının anım günündə bu faciənin təkrar oluna biləcəyinin yolverilməz olduğunu bildirib. O qeyd edib ki, Holokost faciəsi üzərimizə sülh, əmin-amanlıq və qarşılıqlı əməkdaşlıq kimi böyük və mənəvi məsuliyyətlər qoyur.

## Bakıda Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin sammiti keçiriləcək



Bu barədə Gürcüstan Prezident Administrasiyası rəhbərinin müavini Giorgi Abaşişvili bildirib.

O qeyd edib ki, 3 ölkənin iştirakı ilə sammit hər il keçiriləcək və Gürcüstanın geosiyasi rolunun güclənməsinə təkan verəcək.

İlk sammit ötən il Tiflisdə baş tutub, növbəti görüş isə gələn il Türkiyədə keçiriləcək.



## Qoqi Meşveliani: "Biz əhaliyə qayğı göstərməyə çalışırıq"

Bolnisi rayon İcra Başçısı Qoqi Meşveliani "Bolnisi" qəzetinə geniş müsahibə vermişdir. Müsahibədən ən əsas məsələlər haqqında parçaları sizə təqdim edirik.

davamı səh. 8-də

## Baş Nazir Ziya Məmmədovla görüşdü

*Bakı-Tiflis-Qars layihəsinin əhəmiyyəti vurğulandı.*

Gürcüstanın Baş Naziri İrakli Qaribaşvili Azərbaycanın Nəqliyyat Naziri Ziya Məmmədovla görüşüb.



Tərəflər iki ölkə arasında nəqliyyat sahəsində ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə edib, həmçinin Bakı-Tiflis-Qars layihəsinin əhəmiyyətini vurğulayıblar.

Bildirilib ki, Azərbaycan, Gürcüstan və Türkiyədən keçəcək dəmiryolu xətti Avropa və Asiyanı birləşdirməklə, effektli və sürətli sərnişindaşıma və yük daşınmasını təmin edəcək.

Layihənin 2015-ci ilin sonunda başa çatdırılması planlaşdırılır.

### Zəlimxan Yaqub - 65



səh.5

### Unutsaq unudularıq 20 Yanvar



səh.6

### Ədəbi gənclik

Kamuran



səh.10



Əlixan YƏHYAOĞLU

# KOR NALBƏNDİN KOR ATI

Keçən ilin dekabrında UEFA Avropa liqasının növbəti turunun həlledici oyununda Ağdamın "Qarabağ" klubu İtaliyanın məşhur "İnter" komandasını qəbul etdi. Oyunun ilk dəqiqələrində "Qarabağ" futbolçuları intensiv hücumları, uzun və dəqiq ötürmələri və pressinqlərilə rəqibi çaş-baş salmışdı. Rəqibin əks-hücumları zamanı qapının "doqquzluğuna" vurulan topları qapıçı İbrahim Şehiç akrobatik hərəkətlərlə bir neçə dəfə məharətlə çıxartdı. Birinci hissədə "Qarabağ" futbolçuları gözəl taktiki gedişlərlə hücum etsələr də, hava-su kimi lazım olan nəticəni əldə edə bilmirdilər. "Vurmayana vurarlar" prinsipi yadıma düşdükcə əsəbiləşirdim.

"Qarabağ" futbolçularının bəzən ünvansız ötürmələrinə, Riçard Almeydanın, Lorey Corcun, Maksim Medvedyevin uğursuz fərdi oyunlarına, müdafiəçilərin adi səhvlərinə, hücumları ləng qurmalarına, əlverişli vəziyyətləri uğurla başa çatdıra bilməmələrinə təəssüflənirdim. Axı Ağdam futbolçularına qələbə hava-su kimi lazım idi. Onlar bunu dərk etsələr də, lazımi oyun nümayiş etdirə bilmirdilər. Qrupun digər oyununda Ukraynanın "Dnepr" komandası qələbə qazansa, "Qarabağ"ın heç-heçəsi komandanın növbəti mərhələyə keçməsinə "qırmızı işıq" yandırırdı. Bunun üçün "Qarabağ futbolçuları bütün qüvvələrini səfərbər edib hücuma keçməli, qələbə topunu vurmalı idilər. Təəssüf ki, oyunun sonlarına yaxın qarabağlıların yorğunluğu, fiziki zəifliyi açıq-aşkar hiss olunurdu.

Qarşılaşmanın əsas vaxtına əlavə olunmuş 4 dəqiqənin başa çatmasına 40 saniyə qalmış, "Qarabağ"ın futbolçusu Riçard Almeydanın vurduğu top "İnter"in müdafiəçisinə dəyib qapıdan keçdi. QOOOLLL qışqırığıma evdəkilər də məəttəl qaldı. Sevincim uzun sürmədi. "Kitay istehsallı" hakimin gecikmiş və müəmmalı "qərarı" (?) ilə vurulan təmiz qolu hesaba almaması, məni çulğayan xoş əhval-ruhiyyə ani olaraq qəzəb, nifrət və lənət hisslərilə əvəz olundu. Məyusluğum evdəkilərin də kefinə "soğan doğradı".

Ermənistan, Azərbaycan və Dağlıq Qarabağ münaqişəsi baş verəndən bəri, dünyanın bir çox beynəlxalq təşkilatları, aparıcı "super" dövlətləri 1 milyon qaçqını, məcburi köçgünü olan, 20 faiz torpağı işğal altında qalan Azərbaycanın haqq işinə göz yumur, düşmənin radikal mövqeyinə, işğalçılıq siyasətinə, qondarma soyqırım iddiasına bəraət qazandırır. Hər vəhclə sülhün bərqərar olmasına, erməni hərbi birləşmələrinin işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmasına, qaçqınların dədə-baba torpaqlarına qayıtmasına əngəl törədir, münaqişənin Ermənistanın "xeyrinə" həll olunmasına çalışdığı kimi, xalqlar arasında dostluq körpüsü sayılan idmanda da, Azərbaycana qarşı qərəzli qərarlarla təsir edir, keçilməz sədlər çəkirlər. "Qarabağ"-"İnter" görüşündə bu cür təsirlər açıq-aşkar özünü göstərdi".

İstər beynəlxalq təşkilatların ikili standartları, istərsə də beynəlxalq idman assosiasiyalarının, o cümlədən, UEFA-nın ("kor nalbəndin") çeyizlı "sapojniki" Miroslav Zelinka ("kor at") kimi ləyaqətsiz və vicdansız "hakimlərin" saxta, qərəzli mövqe və qərarları Azərbaycanın, eləcə də, Türk dünyasının hayqırtısını, haqq səsini boğa bilməz. İdmanın digər növləri üzrə beynəlxalq yarışlarda Azərbaycanı təmsil edən idmançılar hakimlərin qərəzli və haqsız qərarlarına qarşı hazır olsalar "itlərin hürməsinə baxmayaraq karvan yoluna davam gedəcək".

**SÖZARASI:** Keçən əsrin 60-cı illərində (orta məktəbdə oxuduğum dövrlərdə) Marneuli şəhərinin kinoteatrlarında kinomexaniklər filmlərin nümayişində, futbolda isə hakimlər səhv buraxan vaxtı tamaşaçılar həm kinomexanikə, həm də hakimə təhqiramiz "sapojnik" söz deyə qışqıraraq öz etirazlarını bildirirdilər. Hətta, milis əməkdaşları döyülən hakimləri azarkeşlərin əllərindən gücle alırdılar. Əgər "Qarabağ" "İnter" oyunu Marneuli stadio-nunda keçitilsəydi görəsən, azarkeşlər "kitayski" istehsallı hakim M.Zelinkaya "sapojnikmi" qışqırardılar, dişlərinin dibindən çıxan "müqəddəs" söyüşlərmi söyərdilər, yoxsa "tozunu çırpıb" leşinimi qoyardılar?

Çex "sapojniki" Miroslav Zelinka erməni işğalçıları qədər Azərbaycanın idman aləminə "sarsıdıcı zərbə" vurdu. Bu zərbənin mənəvi təsirindən bizlər bir müddət ayıla bilməyəcəyik. "Hakimin" haqsız və qərəzli "qərarı" ilə "Qarabağ"ın növbəti mərhələdə oynuna "xitam verməsini" Türk dünyasının, minlərlə azarkeşin üzüntüsü, futbolçularımızın haqlarının vicdansızcasına tapdanması və təhqir edilməsi kimi dəyərləndirirəm. Bu həm də, ağlı və gözləri zəifləmiş, dişləri tökülmüş, qəddi əyilmiş, yerişini itirmiş qoca qitənin əldən-ayaqdan düşməsinə işarədir.

Bir onu bilirəm ki, insanlığa sığmayan "qərardan" sonra, çexski "sapojnik" M.Zelinka kimi hakimlər Türk dünyasının nifrət və lənətlərinə, Azərbaycan azarkeşlərinin "mədəni" ana-bacı, ölü-diri, daha neçə-neçə "xoruz səsi eşitməmiş" söyüşlərinə tuş gələcək. Tanrı Qarabağın "qara daşı" boyda ağır daşlar tökəcək M.Zelinka kimi şərəfsiz "qulbeçələrin" başına.

UEFA ANS telekanalında yayımlanan həftəlik "Hesabat" verilişindəki "Qarabağ" – "İnter" oyunu ilə bağlı məşhur jurnalist-publisist Mir Şahin Ağayevin hazırladığı bir çox süjetin "Youtube" portalında yayımını, hətta, bu oyunun geniş icmalını izləməyi qadağan edib (?). UEFA kimi "mötəbər", "ağzına su alıb susan" bir qurumun bu cür qadağalarına nə ad vermək olar?

**P.S.**

***Dinindən, dilindən asılı olmayaraq qəlbində Allah xofu və sevgisi olmayan adamlar həmişə alçaq, şərəfsiz və vicdansız olurlar. Onlar utanıb-qızarmadan haqq-ədaləti nəfslərinə qurban verməkdən xəcalət çəkmirlər. Bəlalərinin "üzünə tüpür, elə biləcəklər göydən yağış yağır".***

***Avropanın UEFA kimi səlahiyyətli qurumun rəhbərləri niyə "ağızlarına su alıb susurlar"? At kor olsa da, nalbənd gərək kor olmasın.***

# Arzudan yoğrulub yapılan "Ümid"



Çoxdankı istək və arzularımız reallaşdığına görə Sizə səmimi təşəkkürümü bildirirəm. Siz şərəfli və məsuliyyətli, mənən ağır bir yükü götürdüyünüzü çox gözəl bilirsiniz, çünki bu sahədə Sizin təcrübəniz var. Ümidvaram ki, çətin və müqəddəs işin öhdəsindən bacarıqla gələcəksiniz.

Hörmətli Bolnisi Mədəniyyət Mərkəzinin və "Ümid" qəzetinin əməkdaşları! Bizləri sevindirəcəksiniz. BMM və "Ümid" ümidləri doğruldub uzunömürlü olacaqlar. Yolunuzun açıq və uğurlu olmasını səmimi qəlbdən arzulayıram!

Arzudan yoğrulub yapılan varlıq,  
Nurlu gələcəyin özüdü "Ümid".  
Vətən torpağında tapılan varlıq,  
Aranın, yaylağın özüdü "Ümid".

Ayları, illəri xoş gələcəkdi,  
Bütün fəsillərdə güldü, çiçəkdi.  
Sönmüş ocaqlara "yan" deyəcəkdi,  
Ləkəsiz aynadı, güzgüdü "Ümid".

Kədərə yox deyər, qəmə yox deyər,  
İntizar gözlərdə nəmə yox deyər.  
Ömür yollarında çənə yox deyər,  
Sevən ürəklərin közüdü "Ümid".

Qövr edir, Bəxtiyar, sözlər beynimdə,  
Haqdan biçilibdi libas əynimdə.  
Ağırdı, Əlixan, yükün çiynində,  
Ellərin yoludu, izidi "Ümid".  
Yazıb-yaradanın özüdü "Ümid".

**Bəxtiyar Mövləli (Rüstəmzadə)**  
***Bala Muğanlı kəndi***

# QƏDƏMLƏRİNİZ MÜBARƏK, ELOĞLULAR!



Bolnisi Mədəniyyət Mərkəzinin yaranması, fəaliyyətə başlaması və "Ümid" qəzetinin işıq üzü görməsi münasibətilə Sizləri təbrik edirəm! Siz elə bir xeyirxah missiyanı yerinə yetirirsiniz ki, fədakarlığınıza, vətənpərvərliyinizə həsəd aparmaqdan başqa çarəm qalmır. Siz əsl insan, qayğıkeş ziyalı, peşəkar qələm əhlisiniz. Ümidvarıq ki, Sizin və əməkdaşlarınızın işgüzarlığı, oxucu və imkanlı iş adamlarının böyük dəstəyi ilə "Ümid" qəzeti ölkəmizin ictimai-siyasi və sosial həyatında baş verən xeyirxah yeniliklərlə oxucuları məlumatlandıracaq, Azərbaycan-gürcü cəmiyyətlərinin inteqrasiyasına öz töhfənizi verəcəksiniz. Sizə uğur və nailiyyətlər arzulayıram. Allah Sizlərə yar olsun! Amin!

**Vüsalə Bayramova,**  
**Faxralı 1 saylı ümumi məktəbin**  
**gürcü dili müəllimməsi**

# TƏBRİK EDİRƏM

"Ümid" qəzetinin nəşri münasibətilə  
Arzulardan, ümidlərdən doğan "Ümid",  
Uzun ömürlü ol, təbrik edirəm!  
Səhfələri dönə-dönə oxudum,  
Dedim:"Uğurlu yol"! Təbrik edirəm!

Xain,paxıl bir özgəyə nökər, qul,  
Elə bilir tutubdu o yaxşı yol.  
Öz xalqına sən gərəksən, gərək ol,  
Qəlblərdə yuva sal, təbrik edirəm!

"Ümid"i yaradan, üzün ağ olsun,  
Yazıb-yaradanın canı sağ olsun.  
İstər qohum olsun, yad, qıraq olsun,  
Deməlidir: "sağ ol", təbrik edirəm!

Bağbanam, bar dərdim bağçadan, bağdan,  
Seçmişəm həmişə qaranı ağdan.  
Hər eldən, obadan,arandan, dağdan,  
Yasin der: "təbrik al", təbrik edirəm!

**Yasin Oruc,**  
***Marneuli rayonu,***



# Gürcüstanda yaşayan azərbaycanlılar üçün güzəştlər tətbiq edilə bilər




Gürcüstan vətəndaşı olan azərbaycanlılar üçün Azərbaycanda müxtəlif imtiyazların tətbiq olunması təklif edilir.

Milli Məclisin deputatı Fərəc Quliyev Trend-ə bildirib ki, bununla bağlı Azərbaycan Parlamentinin yaz sessiyasında təklif irəli sürəcək.

F.Quliyev hesab edir ki, əcnəbi vətəndaşlarla Gürcüstan vətəndaşı olan azərbaycanlılar arasında müəyyən fərq qoyulmalıdır: "Bu ya "Vətəndaşlıq haqqında" qanuna dəyişiklik kimi və ya ayrıca qanun kimi də qəbul oluna bilər. Bilirsiniz ki, Azərbaycanda ikili vətəndaşlıq yoxdur, ancaq biz çalışıb həmvətənlərimizlə bağlı elə bir müddəa nəzərdə tutmalıyıq ki, miqrasiya qanunvericiliyində digər əcnəbilərlə Gürcüstanda yaşayan azərbaycanlılar arasında bir fərq olsun. Yəni yaşamaq, işləmək, əmlak, iş qurmaqla bağlı əlavə imtiyazlar olsun".

Bununla bağlı Gürcüstanda yaşayan soydaşlarımızdan müraciətlərin daxil olduğunu deyən millət vəkili bildirib ki, bu imtiyazlar ikili vətəndaşlığı əhatə edəcək çərçivədə olmalıdır: "Gürcüstan vətəndaşı olan çoxlu sayda soydaşımız Azərbaycana gəlir, burada işləyir. Hesab edirəm ki, bu güzəşti etməklə onlara xeyli kömək etmiş olarıq".

# Marneulidə "İslam Peyğəmbəri (s) və İnsanlıq" mövzusunda tədbir keçirildi

Marneuli şəhəri Əhli-Beyt (ə) Dini və Mədəni Maarif Cəmiyyətinin Hüseyniyyəsində Fransanın "Şarli Hebdo" (Charlie Hebdo) satirik jurnalında İslam Peyğəmbərinə (s) olunan təhqir və hörmətsizliklə əlaqədar, həmin cəmiyyətin nəzdində fəaliyyət göstərən "Əhli-Beyt (ə) Aşiqləri" forumu və "Zeynəb (s.ə) " qadınlar cəmiyyətinin birgə təşkilatçılığı ilə "İslam Peyğəmbəri (s) və İnsanlıq" mövzusunda tədbir keçirildi.



İlahiyatçı Hacı Qurban Murquzov İslam Peyğəmbəri həzrəti Muhəmməd (s) əxlaqı və insanlığa nümunəsindən, eyni zamanda İslam dininin terrorla heç bir əlaqəsinin olmadığını vurğuladı.

Bu duşmənlərin islam dininin nurani çöhrəsini ləkələmək üçün novbəti təxribatı idi. Məclisdə Gürcüstanın müxtəlif bölgələrindən həm müsəlman, həm də məsihi qonaqlar iştirak etdi.



## Yeni Daxili İşlər Nazirinin adı məlum olub

Gürcüstanın daxili işlər naziri postuna Vaxtanq Qomelauri təyin olunub.

Gürcüstan Daxili İşlər Nazirliyindən bildiriblər ki, V. Qomelauri istefa vermiş Aleksandr Çikaidzenin I müavini olub.

V. Qomelauri baş nazirin ona göstərdiyi etimadı doğruldacağını bildirib.

Qeyd edək ki, V. Qomelauri 2013-cü ilədək Bidzina İvanişvilinin şəxsi təhlükəsizlik xidmətinin rəisi olub.

## Əcnəbi vətəndaşlara Azərbaycan dili öyrədilir



Tiflisdəki Mirzə Fətəli Axundov adına Mədəniyyət Muzeyində əcnəbi vətəndaşlara Azərbaycan dili öyrədilir.

Muzeyin elmi işçisi Cəmilə Hacıyevanın verdiyi məlumata görə, Tiflisdə və azərbaycanlıların kompakt yaşadığı bölgələrdə yaşayan əcnəbilər könüllü olaraq muzeyin kitabxanasına müraciət ediblər və onlara Azərbaycan dilini öyrətməyi xahiş ediblər: "Biz də bu xahişi nəzərə aldıq və Amerikadan və digər ölkələrdən gələn əcnəbilərə Azərbaycan dilini öyrətməyə başlamışıq. Artıq 3-4 nəfər bu dili üç ay ərzində öyrənib. Onu da deyim ki, dilimizi öyrənmək üçün Tiflisdə yaşayan gürcülər də bizə müraciət edirlər. Biz onlara Azərbaycan dilinin qrammatikasını və danışıq dilini öyrədir, dilimizin gözəllikləri haqqında ətraflı məlumat veririk. Bu sahədə müsbət irəliləyiş var. Bir çox əcnəbi vətəndaşlar Azərbaycan dilində sərbəst danışa bilirlər. Onu da qeyd edim ki, Azərbaycan dilini daha mükəmməl şəkildə öyrətmək üçün kitablarımız çox azdır. Biz əsasən, yerli azərbaycanlı müəlliflərin Azərbaycan dili haqqında nəşr etdirdiyi kitab və lüğətlərdən istifadə edirik", – deyə C. Hacıyeva bildirib.

# İ.Qaribaşvili: "Bakı-Tiflis-Qars dəmiryolu Avropa ilə Asiyanın bir-birinə bağlayacaq"



Cənubi Qafqaz regionuna Çindən Avropaya məhsul nəql etmək üçün cəld və etibarlı kanallar lazımdır.

Bunu Gürcüstanın baş naziri İrakli Qaribaşvili Davos İqtisadi Forumunda ölkəsinin Azərbaycan və Türkiyə ilə birgə həyata keçirdiyi layihələr barəsində danışarkən bildirib.

Onun sözlərinə görə, belə bir kanallardan biri də hazırda tikintisi aparılan Bakı-Tiflis-Qars dəmiryolu layihəsidir. O bildirib ki, bu dəmiryolu Gürcüstanla Türkiyə arasında birbaşa marşrutu təmin edəcək və Avropa ilə Asiyanın bir-birinə bağlayacaq.

Gürcüstanın baş naziri bildirib ki, layihə həyata keçirildikdən sonra Çindən Avropa bazarlarına məhsul nəqlinin vaxtı azalacaq. Bu məsafə isə təqribən 7 500 kilometrə qədər qısalacaq.

## GUAM-ın yeni baş katibi azərbaycanlı diplomat olacaq

2015-ci ildə Valeri Çeçelaşvilinin GUAM-ın baş katibi qismində mandatı başa çatır. Bunu cümə günü Trend-ə V.Çeçelaşvili deyib. Onun sözlərinə görə, GUAM-ın baş katibi vəzifəsini Azərbaycandan olan diplomat tutacaq. V.Çeçelaşvili söhbətin kimdən getdiyini açıqlamayıb.



O, qeyd edib ki, azərbaycanlı diplomat layiqli və ciddi insandır: "Onun təkcə öz ölkəsində deyil, həm də regionda böyük hörmət və nüfuzu var. Mən Gürcüstana, çox güman ki, XİN-ə qayıdacağam, lakin bu, hələ təsdiqini tapmayıb".

## Daxili İşlər Naziri istefa verdi

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ölkənin Daxili İşlər Naziri Aleksandr Çikaidzenin istefasını qəbul edib. Bunu İ.Qaribaşvili Davos İqtisadi Forumunda jurnalistlərə deyib.



Baş nazir A.Çikaidzenin qərarını şərh etməkdən imtina edib.

## Gürcüstandan Azərbaycana avtomobil ixracı azalıb

Gürcüstandan Azərbaycana avtomobil ixracının azalması bu ölkənin eksportunu təxminən 200 milyon dollar aşağı salıb.

2014-cü ildə bu ölkənin eksportu 2013-cü illə müqayisədə 1,4 faiz azalıb.

Ekspertlərinin qənaəti belədir: "Eksportun aşağı düşməsi minik avtomobillərinin reeksportu ilə bağlıdır. Bunun da obyektiv səbəbi var. Məlumdur ki, 2014-cü ilin yazında Azərbaycan Gürcüstandan avtomobillərin reeksport olunduğu mühüm bazarlardan biri idi. Bu bazarın məhdudlaşdırılması əvvəllər istifadə olunmuş



avtomobillərin Gürcüstandan Azərbaycana satışını aşağı saldı və eksportun azalması mənzərəsini yaratdı".

Ekspertlərin fikrincə, Azərbaycan qanunvericiliyində düzəlişlər olmasaydı, eksport nəinki azalmaz, əksinə 5 faiz artardı".

## Ukraynaya dəstək

Xarici İşlər Nazirliyi Ukraynanın şərqində baş verənlərlə bağlı bəyanat verib.

Gürcüstan hökuməti günahsız insanların həlak olmasına təəssüfləndiyini və dərin narahatlıq keçirdiyini bildirib.

XİN tərəfləri münaqişəni sülh yolu ilə nizamlamağa çağırıb. Gürcüstanın Xarici İşlər Nazirliyi Ukrayna hökuməti və xalqına Mariupol teraktına görə başsağlığı verib.

# Kral adsız məzarda dəfn edildi



Səudiyyə Ərəbistanı Kralı Abdullah bin Əbdüləziz adsız məzara dəfn edildi. Bu barədə Trend cümə günü "CNN Türk" telekanalına istinadən məlumat verir.

Ölkədə rəsmi matəm elan edilmir. Səudiyyə bayrağı isə üzərindəki kəlimeyi şəhadət yazısına görə yarıyadək endirilmir.

Qeyd edək ki, Səudiyyə Ərəbistanının Kralı Abdullah bin Əbdüləziz vəfat edib. Ötən həftə səhhətində yaranan problemlə əlaqədar xəstəxanaya yerləşdirilən Krala qaraciyər sətəlcəmi diaqnozu qoyulmuşdu. Vəfat edən Kralın yerinə vəliəhd Şahzadə Salman bin Əbdüləziz təyin olunub.

# Cənub-Şərqi Asiyada vahid saat qurşağı yaradıla bilər

Region dövlətlərinin daha dərin inteqrasiyası məqsədi ilə Cənub-Şərqi Asiya ölkələrində vahid saat qurşağı tətbiq edilə bilər. Belə bir təşəbbüslə Malayziya Baş nazirinin administrasiya naziri Əbdül Vahid Omar Davosda keçirilən iqtisadi forumda çıxış edib.



AzərTAc Rusiyanın NTV telekanalına istinadla xəbər verir ki, Əbdül Vahid Omarın sözlərinə görə, Cənub-Şərqi Asiya ölkələri (ASEAN) müxtəlif saat qurşaqlarında yerləşdiyindən onların arasında bəzi istiqamətlərdə əməkdaşlıq çətinləşir. Məsələn, Myanma ilə İndoneziyanın şərq hissəsi arasında saat fərqi 2 saat 30 dəqiqə təşkil edir.

Qeyd edək ki, ASEAN-a Bruney, Vyetnam, İndoneziya, Kamboca, Laos, Malayziya, Myanma, Sinqapur, Tailand və Filippin daxildir. Ümumi sahəsi təxminən 4,5 milyon kvadratkilometr olan ASEAN ölkələrində 625 milyon nəfərdən çox əhali yaşayır.

# Hüsnü Mübarəkin oğulları həbsdən azad olundu



Misirin sabiq prezidenti Hüsnü Mübarəkin iki oğlu həbsdən azad olunub.

Alya və Qamal Mübarəklər Qahirənin cənubundakı "Tora" islah müəssisəsindən azadlığa buraxılıb və evə yollanıblar.

Qeyd edək ki, Hüsnü Mübarək və oğulları dövlətvəsaitləriniqanunsuzmənimsənilməsində və korrupsiyada ittiham olunublar. Bu ittihamla sabiq prezident 3, Alya və Qamal isə 4 il müddətinə azadlıqdan məhrum olunublar. Daha sonra onların üzərindən bütün ittihamlar götürülüb və iş üzrə yeni baxış təyin olunub.

Son məlumatlara görə, 86 yaşlı Hüsnü Mübarək Qahirədəki hərbi hospitalların birində müalicə olunur.

# Ukrayna ordusu separatçıların 6 təyyarə və 4 vertolyotunu vurub



Separatçılara məxsus 6 təyyarə və 4 ədəd Mİ-24 tipli helikopter məhv edilib.

Teleqraf.com unian.net-ə istinadən xəbər verir ki, bunu Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahının mətbuat mərkəzinin rəhbəri Vladislav Seleznyov deyib. Onun sözlərinə görə, hərbi texnika aparılan əks-hücumlar zamanı partladılıb. Seleznyov hücum zamanı ölən və ya yaralılarla bağlı məlumat verməyib.

# Qorxulu vulkan sakitləşmək bilmir



Mərkəzi Amerikanın ən təhlükəli və aktiv vulkanı püskürməyə davam edir. Meksikanın paytaxtı Mexikodan 480 km qərbdə yerləşən Kolima vulkanının püskürdüyü tüstü və kül buludu 9 kilometrdən də yüksəyə qalxıb.

Ştatın bir sıra şəhərlərinin küçələri, evləri küllə örtülüb.

Vulkanın yaxınlığında yerləşən qəsəbələrdən və kəndlərdən sakinlərin təxliyyəsi aparılır.

Kolima vulkanının yaxınlığındakı Syudad-Qusman şəhəri boşaldılır.

# Zəriflə Kerri yenidən görüşdülər

Davos İqtisadi Forum çərçivəsində ABŞ və İran xarici siyasət idarələrinin rəhbərləri Con Kerri və Məhəmməd Zərif arasında görüş olub.

Məlumata görə, görüş bir saatadək davam edib. Danışıqlar mövzusunun İran nüvə proqramının olduğu bildirilir.



Hər-hansı bir razılaşmanın əldə olunması barədə məlumat verilmir.

Qeyd edək ki, bundan əvvəl Məhəmməd Zərif forum çərçivəsində çıxışı zamanı bildirmişdi ki, ABŞ Konqresi tərəfindən İrana qarşı yeni sanksiyaların tətbiqi Cenevrədə Tehran və "altılıq" arasında əldə edilmiş razılaşmanı poza bilər.

Konqresin İrana qarşı yeni sanksiyalar tətbiq etmək ideyasını prezident Barak Obama və ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Samanta Pauer də pisləyib.

# Obama yeni kralla tanış olmaq üçün Ərəbistana getdi

ABŞ prezidenti Barak Obama Səudiyyə Ərəbistanı



əhalisinə kral Abdullah bin Əbdüləzizin vəfatı ilə əlaqədar başsağlığı vermək, yeni kralla görüşmək və dünyanın aktual problemlərini müzakirə etmək üçün Ər-Riyada gəlib. Belə ki, 30 nəfərlik nümayəndə heyəti ilə Ər-Riyada səfər edən Barak Obamanı kral Salman bin Əbdüləziz Al-Səud qarşılayıb.

# İran Rusiyadan ümidini itirmir

İran Rusiyadan S-300 raket komplekslərinin alınmasına dair müqavilənin yerinə yetiriləcəyinə ümid edir.

Bu fikri İranın xarici işlər naziri Cavad Zərif bəyan edib: "İran hesab edir ki, S-300 raket komplekslərinə dair müqavilə qanunlara uyğun olduğundan sanksiyaların təsirinə düşməməli idi. Həmin müqavilə sanksiyalardan əvvəl imzalanıb, digər tərəfdən S-300 kompleksi hücum deyil, müdafiə sistemidir".

BMT Təhlükəsizlik Şurası İrana qarşı sanksiyalar tətbiq edilməsi barədə qətnamə qəbul etdikdən sonra Moskva Tehranla bağladığı kontraktın yerinə yetirilməsini dondurub.



Moskvanın bu addımının müqabilində İran Cenevrə iqtisadi məhkəməsinə müraciət edərək, dəymiş zərərin ödənməsi məqsədilə Rusiyaya qarşı 4 milyard dollarlıq maliyyə iddiası qaldırıb.

# Paradda Rusiya hərbi texnikası nümayiş olunub

Respublika günü münasibəti ilə Nyu-Delidə keçirilən hərbi parad Rusiya istehsalı olan təyyarələrin uçuşu ilə başlayıb. Paradı izləyənlər arasında Hindistana səfər edən ABŞ Prezidenti Barak Obama da olub.

Piyada və süvarilərin keçidindən sonra Barak Obamaya sarı-yaşıl rənglə boyanmış Rusiyanın T-90 tank qrupu nümayiş etdirilib.

Bundan başqa hərbi paradda helikopterlərin, yaylım atəşi sistemlərinin də iştirak etdiyi digər silah növlərinin keçidi olub. Hərbi paradı Hindistan Prezidenti Pranab Kumar qəbul edib.



# Dünya gözəli bəlli oldu

Kolumbiyalı Paulina Veqa Mayamidə keçirilən "Dünya Gözəli 2014" müsabiqəsinin qalibi seçilib.

Finala kolumbiyalı ilə yanaşı, ABŞ, Niderland, Ukrayna və Yamayka təmsilçiləri də vəsiqə qazanıb.



87 qızın iştirak etdiyimüsabiqənin vitse-dünya gözəli ABŞ təmsilçisi Nia Sançes və "Ukrayna gözəli" Diana Qarkuşa olub. Rusiyalı Yuliya Alipova 15 finalçının sırasına düşə bilməyib.

Qeyd edək ki, 22 yaşlı Paulina məşhur tenor Qaston Veqanın nəvəsidir. Onun üç qardaşı və dörd bacısı var.

# Yunanıstanın baş naziri parlament seçkilərində məğlub oldu

Yunanıstanın baş naziri, sağ-mərkəzçi "Yeni Demokratiya" Partiyasının rəhbəri Antonis Samaras parlament seçkilərində məğlubiyyətini etiraf edib.



A. Samaras seçkidə qələbə çalan radikal sol "Siriza" Partiyasının lideri Aleksis Tsiprası təbrik edib: "Yunan xalqı öz sözünü dedi və biz onun qərarına hörmətlə yanaşırıq".

Qeyd edək ki, "Siriza" Partiyası 36 faizə yaxın səs toplayıb, "Yeni Demokratiya" isə 28 faizdən bir az artıq səs alıb.

# Asiya kubokunda finalçılar müəyyənləşdi

Futbol üzrə Asiya kubokunda ikinci finalçı da müəyyənləşib.

Yarımfinal görüşündə Avstraliya və Birləşmiş Ərəb Əmirliklərinin yığmaları üz-üzə gəlib.



Oyun Avstraliya millisinin qələbəsi ilə başa çatıb. Rəqibinə 2:0 hesabı ilə qalib gələn Avstraliya yığması finala yüksələn ikinci komanda olub.

Qeyd edək ki, finalda Avstraliya və Cənubi Koreya yığmaları yanvarın 31-də üz-üzə gələcək.

# Dünya Bankı Qəzzada tibb işçilərinə 8,5 milyon dollar ayıracaq



Xatırladaq ki, 2014-cü ilin iyul-avqust aylarında İsrailin həyata keçirdiyi hərbi əməlyyat nəticəsində Qəzzanın 100 mindən çox sakini sığınacaqdan məhrum olub, 250 minə yaxın adam ölkə daxilində köçkün həyatı yaşamaq məcburiyyətində qalıb. Əlli günlük münaqişə 2100 nəfər fələstinlinin ölümünə səbəb olub. Onlardan 500-ü uşaq olub.

Bankda ümid bəsləyirlər ki, maliyyə dəstəyi səhiyyə sahəsinin xidmətlərini sakinlər üçün əlçatan edəcək.

# Zəlimxan Yaqub daşı (ucqar havası)



...orda ayla, illə, burda müxtəsər dillə, sizə hardan xəbər verim. İndi mən Əli Kərimin məşhur "Daş" şeirindəki "yarıçılpaq, yarıvəhşi qədim insan atan daş"dan danışmıram. Amma burası da var ki, necə ki, "varlıq" sözündəki "var"da bir çox varlıqların olması istisna deyil, o halda çox ola bilər ki, mənim "daş"ımın içində də Əli Kərimin "Daş"ından tutmuş, bostanımıza (oxu: Qarabağ) atılan daşlara qədər yüz bir daş "nümunə"si olsun...

Bu yerdə kəsədən getmək, müxtəsər danışmaq mümkünsüz olduğu üçün Zəlimxan Yaqubun bala vətəni Kəpənəkçiyə dönürəm. Zəlimxan Yaqubun bala vətəni Kəpənəkçi ilə mənim doğulduğum Dəllər kəndləri arasında bir Fal Daş, bir də bir Qatar Qaya deyilən yerlər var. Çox mənzərəli yerlərdir. Görən kimi adamın içindəki çoxtelli saz öz-özünə çalınır. Lap xalq yazıçısı Elçinin "Mahmud və Məryəm" romanındakı Sazlı Abdullanın öz-özünə çalınan sazıtək... Necə deyərlər, yazsam roman olmazmı? Ancaq seyrəngah yerinin samanlıqdan fərqini bildiyiniz üçün yazıma davam etməklə kifayətlənirəm.

Mən mübaliğəsiz, məcazsız da ötüşən adamam. Amma hər dəfə Fal Daşdan keçəndə Seyid Əzimin ikicə misrasına köklənməməyə bilmirəm:

*Açıram məshəfi yüz dəfə, əlif-lam gəlir,*
*Qamətü zülfdə, ey dil, nə gözəl falın var!*

Məsəl var: fala inanma, falsız da qalma. Burasını deyim ki, Fal Daşsız, Qatar Qayasız Kəpənəkçi – Dəllər arası kasıb, hələ desən miskin görünərdi. Çoxmənalı söz olan "fal" mənim üçün nədənsə çox vaxt eləcə "bəxt", "tale" mənalarını daşıyıbdı. İndi yolu vaxtilə Fal Daşdan, Qatar Qayadan dönə-dönə keçən xalq şairimiz Zəlimxan Yaquba gözəl taleyi, uğurlu qisməti ilə bəxtəvər verənlər azdırmı?

Amma mənə elə bir adam göstərin ki, hamı onun haqqında başdan-başa ya yaxşı, ya da pis danışsın?

Məgər biz vaqiflər olaraq, bizim haqqımızda pis danışanlar üçün də gözəl dualar etmədikmi?

...Əyriqardan o tərəfə İri Daş deyilən məskən var. Həm də mənim babalarımın – Bayram babamın, Tamı babamın, Musa babamın, atam Məhəmmədəlinin yaylaq yeri olub. Mənə danışıblar ki, Zəlimxan Yaqub ***"Şair gəlib dağlara, dağlar qonaqlıq verir"*** misrası ilə başlayan və bitən şeirini ilkin olaraq Əyriqarın dediyim həndəvərlərində şehli-şehli pıçıldayıbdı. İndi Zəlimxan özü İri Daşdır, İri Vətən Daşıdır!

İndi az qala hamımız xalq şairimiz Məmməd Arazın iki misrasını əzbər bilirik:

*Vətən daşı olmayandan*
*Olmaz ölkə vətəndaşı!*

Zəlimxan Yaqub kimi "vətən daşları"nın çəkiləri də, vəznləri də ağır olduğu üçün onlar ağır çəkili "ölkə vətəndaşları" sayılırlar.

Və belə ağır daşların düşmən başında çatlamasının nəticəsini... Artur Şopenhauerdən üzü bəri bütün vaqiflər bilmirmi? Yəni bir var başına çaylaq daşı, çarpanaq, noxud boyda daş düşə, bir də var Zəlimxan Yaqub daşı düşə.

...Daş bəzilərinə görə, sadəcə, təbiətdə parçalar, yaxud böyük və kiçik kütlələr şəklində təsadüf olunan, suda həll olunmayan bərk cisim, süxurdur.

Daş dövründən dolayı, insan oğlunun yolu neçə daşlıqdan, neçə sarp dağlardan, qayalıqlardan keçib...

Kənddə Zəlimxandan söz düşəndə rəhmətlik anam deyərdi: – Ay bala, görüm onun ayaqlarına daş dəyməsin!

Cavab verirdim ki, ay ana, heç narahat olma, Zəlimxan o oğullardandır ki, qoymaz hər nadürüstün daşı ona dəyməyə: yəni, elə alçatmaz, elə əlyetməzdir. Əlbəttə, ucalıq mənasında!

Sonralar... oğlum Anarın toyunda Zəlimxan müəllim Bakıdan zəng vurub bizi təbrik etdi. Mənə də dedi ki, telefonu anama verim. Zəlimxan müəllim dünyanın "Ucqar" adlandırdığım yerində, dolub-boşalan və nəticədə göz yaşlarını saxlaya bilməyən anama gözaydınlığı verdi.

Həmin ilin oktyabrında anam dünyasını dəyişdi. Yüz bir daş növündən dolayı, bu "son ucu ölümlü dünya"da baş daşı deyilənin nə olduğunu hansı birimiz bilmirik? Anamın başdaşının üstünə Zəlimxan müəllimin də çox sevdiyi Nəcib Fazil Qısakürəyin bu bəndini yazdırdım:

***Qapı-qapı bu yolun***
***son qapısı ölümsə,***
***Hər qapıda ağlayıb***
***o qapıda gülüm**sə.*

...Dərbənddən – Səmərqəndə, Zəncandan – Ərzincana, Borçalıdan – Təbrizə adi vətən daşına dönmək istəyimiz Nazim Hikmətin dənizə dönmək istəyinə arazbarı azmı bənzəyir?

Xatırladıram ki, padşah saraylarının həyətindəki elçi daşları imkan verirdi ki, hərdən-hərdən, arada-sırada kasıb-kusub da gözünün ağı-qarası oğlu üçün padşah qızına elçi düşsün...

Amma daşla bağlı xəcalət yeri də xali deyil. Belə ki, tarixdən qədim Afina bazarlarında qullar üçün nəzərdə tutulan alqı-satqı daşları da məlumdur... Qulları növbə ilə alqı-satqı daşına qaldırırdılar və tərifləyib bu minvalla müştəri qızışdırırdılar.

Cəmləyib dediklərim budur ki, çox daşların, çox daş qəlblərin, daş karxanalarının və daş sexlərinin dövrü keçib.

Vətən Daşlarından savayı!

Nekrasov gözəl deməmişdimi: "Şair olmaya bilərsən, amma vətəndaş olmağa borclusan"!

Vətəndaş – yəni Vətən Daşı!..

Zira, Zəlimxan Yaqub daşı "bu dünyanın qara daşı göyərməz" xalq deyimimizə rəğmən, göyərə bilən daşdı, yaşıllaşan, tumurcuqlayıb çiçəkləyən, şehləyə bilən daşdı...

...Bu yerdə bir Həqiqətə vəfadarlıq idealı danışmalıdır. Danışır da! Dünyanın ucqar deyilən yerində Zəlimxanla bağlı – bəlkə daha çox Ucqarla Uzaq və Sınıq körpünün hər iki tərəfi ilə bağlı – arazbarı yazılar yazmışam: "Ustadlar üç dedi ustadnaməni", "Kəpənək zərifliyi", "Payız yağışının səsi". Bu yazılarda şairlərin çəlləklərdə yox, saraylarda yaşamaq hüquqlarından da, təkcə Zəlimxanın deyil, həm də bütün vaqiflərin – Elçin, Vaqif Səmədoğlu, Vaqif Bayatlı, Ramiz Rövşən, Əlabbas, Elçin Hüseynbəyli, Nəriman Əbdülrəhmanlı, Əjdər Ol – kəpənək mövsümündə adi kəpənəkçi ola bilmək haqlarından da söz açmaq cəhdlərim olub. Sadəcə, hər gün Borçalıdan üzü dan yerinə salam göndərdiyim vaqiflərin siyahısı çox uzundur, Araz nədir, heç Xəzərə də sığmaz. Hesaba alsaq ki, "Araz üstü – buz üstüdür" o halda vaqiflərin siyahısını ancaq göyüzünə yazmaq olar.

...Ucqarda daha çox Süsən-Sünbüldən, Mirzələrdən–MirzəHalaypozandan,Mirzə Tüpdağıdandan, Mirzə Tanrıtanımazdan (hayıf Koroğlu dəlilərinin dambat adlarına!), Mirzə Mikrobdan, Mirzə Virusdan və s.və i. – yazıram. "Mirzə" sözü "əmirzadə"nin ixtisarıdır. Mənası da budur ki, yazmaq, katiblik, yazıçılıq etmək, mühüm sənədlərin üzünü köçürmək vaxtilə yalnız və yalnız əmir oğullarına etibar olunurdu. İndi... insan haqları əsrində, insanın davamlı inkişafı əsrində hamı yaza bilər. Yazır da! Amma – sözümün təkrarına qayıdıram – gərək Həqiqət unudulmaya! Bütün dövrlərdə diri və duru qalan Həqiqət! Nazilən, amma üzülməyən Həqiqət!

Həqiqəti tərəzidə çəkmək cəhdi hər dəfə iflasa uğramazmı? Bu, fiasko olmazmı? Və mizan-tərəzi olan yerdə şeytan tərəzisi keçərmi? Tərəzi daşlarını nə qədər dəyişirsən dəyiş!

Həqiqətə vəfadarlıq idealının yüz bir çalarından bircəciyi budur ki, vaqif yazarlar vətən daşları olaraq heç vaxt əmanətə – bizim halda bədii Sözə – xəyanət etməyiblər!

Bir qədim pritçanı nümunə gətirirəm:

"Aristotel Platonun tələbəsi olsa da, onun fəlsəfəsini tənqid edirdi. Bir dəfə ondan soruşdular:

– Siz niyə Platonu tənqid edirsiniz, axı o, Sizin müəlliminiz olub?

– Mən müəllimimi çox sevirəm, ancaq Həqiqəti ondan da çox sevirəm, – deyə Aristotel cavab verdi".

Çox ola bilər ki, bəzi vaqif yazarların hərdən-hərdən "yola getməmək"ləri elə bu "acı" Həqiqət səbəbindəndir?!

Misal çəkəcəyim ikinci nümunə də çox düşündürücüdür. Əlbəttə, Həqiqətə etibarlı olmaq idealı baxımından! Məhz vaqif adamlar bu İdealın təsiri altına hələ erkən yaşlarından düşürlər və bu İdeal sonralar onların həyat tərzinə çevrilir!..

...Qədim yunan filosofu Zenonu mühakimə edirdilər. Hökmdar Nearxın iştirakı ilə keçirilən istintaq zamanı hökmdarın və hakimlərin ədalətsizliyinə və saxtakarlığına dözməyən filosof öz dilini dişləyib kəsir və onu qanlı-qanlı hökmdarın düz üzünə tüpürür...

Belə...

Bakının yolları su yolu olsa da, xeyli vaxtdır Bakıya gedə bilmirəm. Ucqarda vaqiflərə atılan daşlara hərdən-hərdən yerində cavab verə bilməmək də çox incidir məni!

Axı, mənim bircə dilim var. Dişimlə bircə dilimi kəsib hansı neçə yaramazın üzünə tüpürüm?!

**P.S.**

Eşitdim, Zəlimxan müəllim Almaniyada müalicədən yenicə qayıdıb. Allah şəfa versin!

...Mən indi məşhur Amerika yazıçısı Tomas Vulfun Almaniya təəssüratlarını oxuyuram. Öz aramızdır, Tomas Vulfun daşı da ağır olub! Onun "Almaniya dəftəri" də Zəlimxan Yaqubun "Almaniya dəftəri"tək zərif olub: eynən, yarı alma kimi oxşar! O almalar ki... padşahın bağında... birinci gün çiçək açan, ikinci gün çiçəyi tökən, üçüncü gün bar verən alma ağacından yerdəki sirli qaval daşının üstünə ikibir, üçbir düşürdülər...

**İbrahimxəlil**

Şərif Ağayar



# Zəlimxan Yaqubun yetimləri

Dünyada böyük ideallar da var, kiçik insan həqiqətləri də. Ancaq həqiqətin dəyəri onun ölçüsündə deyil, sadəcə həqiqət olmasındadır. İnsan böyük ideallara can atır həmişə. Can atmalıdır da! Di gəl, kiçik həqiqətlər də yüksək həssasiyyət tələb edir. Bəzən isə insanlığı bu kiçik, ilk baxışdan elə də əhəmiyyət daşımayan həqiqətlər daha tez və daha dərindən xarakterizə edir.

Bu fikirlər Zəlimxan Yaqubun müsahibəsini oxuyandan sonra ağlıma gəldi. Ağır xəstəliklə əlbəyaxa olan şair xeyli maraqlı mətləblərə toxunub.

Kimdir Zəlimxan Yaqub?

Ona münasibət birmənalı deyil. Onu hədsiz sevənlər də var, zərrəcə xoşu gəlməyənlər də! Amma reallıq reallıqdır! Nə birincilər kimi emosionaldır, nə də ikincilər kimi nihilist.

Şair deyir, yetimlər atası olmuşam – haqlıdır!

Deyir, insanların duası mənə kömək edir – buna şahidəm!

Və elə bu məqamda Zəlimxan Yaqubun dediklərini təsdiq edən bir neçə situasiyanı xatırlatmaq istəyirəm.

"Panorama" qəzetində təzə işə düzəlmişdim. Həmin ərəfədə necə oldusa AYB-nin və Yazıçıların Həmkarlar İttifaqının təsis etdiyi X.R.Ulutürk mükafatını mənə verdilər. Şeirlərimi bu müsabiqəyə Ayaz Vəfalının təklifi ilə təqdim etmişdim. O vaxt (90-ların sonu) "Ədəbiyyat qəzeti"ndə hər ayın ilk həftəsi "Gənclər günü" keçirilirdi. Tədbiri Ayaz Vəfalı aparırdı. Oradan tanış idik.

Mükafatın təqdimat mərasiminə "Panorama" qəzetində şöbə müdirim olan Süleyman Qaradağlı ilə getmişdim. Mətbuatda təzə idim. Məqaləni hekayə kimi, xəbəri inşa kimi yazırdım... Süleyman müəllim mənə çox kömək edirdi və belə bir xoş gündə də yanımda olmaq istəyirdi.

Natəvan klubunun səhnəsində tanınmış yazıçılar oturmuşdu. Zəlimxan Yaqub da onların arasında idi. Mükafatın qalibləri elan olunandan, diplom və pul mükafatları təqdim ediləndən sonra keçib arxada oturdum. Bir azdan Zəlimxan Yaqub səhnədən düşüb yanıma gəldi, boş yerlərin birində oturdu və mənimlə söhbətə başladı. Tədbirdən sonra isə öz maşını ilə məni və Süleyman müəllimi nəşriyyatacan gətirdi. Hiss elədim ki, o, bunu şöbə müdirimin yanında mənim nüfuzumu qaldırmaq üçün edir.

..."Panorama" bağlanandan sonra ədəbiyyat və mədəniyyət yazıları üçün "Yeni Azərbaycan" qəzetinə dəvət olundum. Bildiyiniz kimi bu qəzet hakim partiyanın orqanı idi. Baş redaktor Alqış Həsənoğlu da həmin dövrlərin ən nüfuzlu jurnalistlərindən sayılırdı. Redaksiyada mühit bir az yad idi mənim üçün. Doğrudur, imzamı tanıyır və hörmət edirdilər, ancaq yenə də. Ən azı təzə kollektivə, yeni rəhbərliyə alışmaq bir az zaman istəyirdi. Həmin vaxtlar millət vəkili, xalq şairi Zəlimxan Yaqubun odlu-alovlu vaxtları idi. Mərhum prezident Heydər Əliyevlə səfərlərə gedir, efirdən düşmürdü.

BirgünsəhərtezdənpodşivkayabaxmaqüçünAlqışHəsənoğlunun qəbul otağına getdim (podşivka orda idi). Qəflətən Zəlimxan Yaqub girdi içəri. Başında buxara papaq... Əynində uzun palto... Mənimlə çox səmimi görüşdü və qəbul otağındaca əyləşib söhbətə başladı. Ağa Laçınlıdan, Hüseyn Kürdoğludan, Malik Fərruxdan və başqa laçınlı şairlərdən, o camaatın qonaqpərvərliyindən, Borçalı ilə ortaq yanlarından xeyli danışdı. Alqış Həsənoğlu Zəlimxanın səsinə kabinetindən çıxdı. Dedi, şair, bayaqdan səni gözləyirəm. Zəlimxan Yaqubun cavabı gözlənilməz oldu: "Şərifi gördüm, məclisi bura saldım, sən də bir stul çək, əyləş!"

...Qağayla (ona dostlar arasında belə deyirik) daha bir qeyri-adi qarşılaşmam Laçın rayon İH-nin keçmiş başçısı Ramiz Cəbrayılovun Taxtakörpü qəsəbəsindəki (Ağcabədi) kabinetində oldu. Kəndimizdə bir aşıq var: Cabbar müəllim... Onun 60 illiyi idi. Tədbir Taxtakörpüdə, Laçının mədəniyyət evində keçirilirdi. Mən də getdim. Səhər tezdən Cabbar müəllim zəng vurdu ki, Bakıdan gələn qonqları başçı qəbul edəcək, sən də dəvətlisən. Getdim. İçəri girəndə Zəlimxan Yaqubla Ağcabədinin millət vəkili Tahir Rzayevi (o da şairdir) başçının otağında gördüm. Zəlimxan Yaqub qalxıb mənimlə elə görüşdü ki, elə bil Yusif peyğəmbər təşrif gətirib. Çaşıb qaldım. Bu iltifatı görən başçı da mənimlə görüşmək üçün ayağa qalxmalı oldu.

Sonradan bildim ki, Zəlimxan Yaqub axşamdan başçının qonağı imiş. Laçınlı qələm adamlarından, o cümlədən məndən xeyli danışıb. Başçının münasibətindən hiss etdim ki, məni layiq olmadığım yüksəkliklərə qaldırıb.

Yubiley tədbirində Laçın camaatı Zəlimxan Yaqubu çox böyük coşquyla qarşıladı. O da özünə xas, insanların damarını tutan, hətta çoxunun gözünü yaşardan maraqlı bir çıxış elədi. Çıxışında məndən də danışdı və axırda dedi: "Şərifi sizə tapşırıram, onun qiymətini bilin".

Mən öz şəxsimdə Zəlimxan Yaqubun gənc və imkansız bir qələm adamına göstərdiyi sayğıdan az da olsa yazdım. İnanın, Zəlimxanın qolundan tutduğu yetimlərin hamısı səmimi olub nəsə yazsa, böyük bir kitab bağlamaq olar. Amma əsas olan həmin kitabın yazılması deyil. Əsas olan Tanrıdır ki, o da hər şeyi görür!

## Qaraçöpdə

Yanvarın 19-da Saqarecoda (Qaraçöp bölgəsi) azərbaycanlıların kompakt yaşadığı Yor-Muğanlı kəndində 9 aprel və 20 yanvar şəhidlərinin xatirəsinə ucaldılmış abidənin bərpadan sonra açılışı olub.

APA-nın Gürcüstan bürosunun məlumatına görə, abidənin açılışında Azərbaycanın Gürcüstandakı səfiri Azər Hüseyn, Gürcüstanın hökumət nümayəndələri, Saqareco rayon icra hakimiyyətinin rəhbərliyi, ARDNŞ nümayəndələri, gürcü və azərbaycanlı ziyalılar, tələbələr və kənd sakinləri iştirak ediblər.



Azərbaycanın Gürcüstandakı səfirliyinin təşəbbüsü və ARDNŞ-in Gürcüstan nümayəndəliyinin maliyyə dəstəyi ilə inşa edilən abidənin açılışında çıxış edən Azərbaycan səfiri Azər Hüseyn 20 yanvar faciəsinin 25-ci ildönümü ilə bağlı bərpa edilən abidənin açılışını əlamətdar hadisə adlandırıb.

Saqareco rayon İcra Hakimiyyətinin rəhbəri Georgi Kvirişvili çıxışında Gürcüstan və Azərbaycan dostluğunun sarsılmaz olduğunu bildirib: "Ölkələrimiz çox yaxın və dost, qardaş ölkədir. Bizim kədərimiz və sevincimiz də birdir. 1989-cu ildə baş verən 9 aprel və 1990-cı ildə baş verən 20 yanvar faciələri dövlətlərimizin tarixinə yazılan şanlı səhifələrdir. Biz şəhidlərimizi həmişə xatırlayacağıq!".

Qeyd edək ki, 20 yanvar faciəsində 5 nəfər Gürcüstan vətəndaşı olan azərbaycanlı həlak olub ki, onlardan biri də Qaraçöp kənd sakini Ələsgər Qayıbov idi.

**Nizami Məmmədzadə**

## Tiflisdə

Tiflis Beynəlxalq Akademiyasında "Borçalı İrəli" İctimai Birliyinin təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 25-ci ildönümünə həsr edilən "Unutsaq, unudularıq!" adlı anım mərasimi keçirilib.

Tədbirdə Azərbaycanın Gürcüstandakı səfirliyinin əməkdaşları, akademiyanın professor və müəllim heyəti, azərbaycan - gürcü ziyalıları, tələbələr və jurnalistlər iştirak edib. 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.



Tədbiri açan "Borçalı İrəli" İctimai Birliyinin sədri Məhəbbət İmanov 20 Yanvar faciəsindən 25 il ötməsinə baxmayaraq, hələ də bu faciənin ağrı və dəhşətlərinin Azərbaycan xalqının qəlbindən silinmədiyini bildirib. Anım mərasimində Gürcüstan Texniki Universitetinin professoru, filologiya elmləri doktoru Quram Quvanitadze, Qafqazın Geotarixi və Geosiyasi Araşdırmaları Beynəlxalq Mərkəzinin prezidenti, tarixçi-professor Quram Marxulia və başqaları çıxış ediblər. Natiqlər Azərbaycan və gürcü xalqının eyni taleyə malik olduğunu, ölkələrimizin müstəqillik yolunda qurbanlar verdiyini, hər iki ölkədə faciə və qırğınlar törədildiyini bildiriblər. Tədbirdə 20 Yanvar faciəsindən bəhs edən film nümayiş olunub.

# BOLNİSİ MƏDƏNİYYƏT MƏRKƏZİNDƏ

Məlum səbəblərə görə, uzun müddət soydaşlarımızın Bolnisi şəhərində heç bir mədəni-kütləvi tədbir keçirə bilmədiyini nəzərə alaraq, bir qrup ziyalı tərəfindən yaradılan "Bolnisi Mədəniyyət Mərkəzi"nin təşkilatçılığı ilə rayon İcra Hakimiyyətinin iclas zalında "Qanlı Yanvar qəhrəmanlıq



faciəsi"nin 25-ci ildönümünə həsr edilmiş ilk tədbirini keçirdi. Tədbirdə Azərbaycan və gürcü ictimaiyyətini təmsil edən çoxsaylı nümayəndələr, tələbə-gənclər və təşrif buyurmuş digər qonaqlar da iştirak etdilər.

Bolnisi Mədəniyyət Mərkəzinin sədri Fikrət Məmmədov giriş sözü ilə yığıncağı açıq elan etdikdən sonra, onun təklifi ilə tədbir iştirakçıları azadlıq və müstəqillik uğurunda həlak olmuş 20 Yanvar və 9 Aprel şəhidlərinin ruhunu bir dəqiqəlik sükutla yad etdilər.

Faciə haqqında "Ümid" qəzetinin redaktoru Əlixan Yəhyaoğlu, rayon İcra Başçısının müavini Longinoz Həsənov, deputat Leyla Əliyeva, müəllimlər Alidə Məmmədəlizadə, Hidayət Göyüşov, Zakir Məmmədov M.Qorbaçovun göstərişilə SSRİ Müdafiə Nazirliyinin, Dövlət Təhlükəsizlik Komitəsinin və Daxili İşlər Nazirliyinin 60 minlik hərbi birləşmələrinin, xüsusi təyinatlı "Alfa" qrupunun üzvlərinin əliyalın insanları, qadın və kişiləri, qoca və uşaqları, hakim və polisləri amansızcasına qətlə yetirmələrindən, çoxsaylı qətliamı ört-basdır etmək üçün meyitləri dənizə atmalarından, Şimali Qafqazdan səfərbər edilmiş xüsusi təlim keçmiş erməni zabit və əsgərlərinin vəhşiliklərindən danışdılar. Qoçulu məktəbinin şagirdləri Nailə Allahverdiyeva, Sevinc Namazova Xalq şairi B.Vahabzadənin və şair-publisist M.Aslanın azadlıq və müstəqillik uğrunda həlak olan şəhidlərə həsr etdikləri "Şəhidlər" və "Ağla, qərənfil" şeirlərini əzbər dedilər.

Rayon İcra Hakimiyyətinin Başçısı Qoqi Meşveliani, rayon Bələdiyyə sədrinin müavini İmran Qasımov, deputatlar Qara Gülməmmədov və Vüqar İsayev tədbirdə iştirak etdilər.

Tədbir iştirakçıları zalda qəhrəmanlıq faciəsini əks etdirən foto şəkillərlə tanış oldular. Sonda Bolnisi Mədəniyyət Mərkəzinin sədri F. Məmmədov tədbirin keçirilməsinə



dəstək olan rayon İcra Hakimiyyətinin Başçısı Qoqi Meşvelianiyə, onun müavini Longinoz Həsənova və Bələdiyyə müavini İmran Qasımova dərin təşəkkürünü və minnətdarlığını bildirdi. Bununla da tədbir sona yetdi.

## Marneulidə

Tədbirdə Azərbaycanın Gürcüstandakı səfirliyinin birinci katibi İlyas Məmmədli, səfirliyin əməkdaşları, Gürcüstan parlamentinin deputatı Mahir Dərziyev, bu ölkədə



fəaliyyət göstərən ali məktəblərin müəllim və tələbələri, Bakıdan, Tiflisdən gələn ziyalılar, QHT nümayəndələri, Borçalıdan olan şəhidlərin yaxınları iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə qanlı Yanvar hadisələrinə həsr olunmuş fotoşəkillərə baxıblar.

Sonra Gürcüstan və Azərbaycanın müstəqilliyi uğrunda həlak olan qəhrəmanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

AMM-nin sədri Fazil Həsənov bildirib ki, mərkəzdə gürcü və Azərbaycan dillərində 20 Yanvar faciəsinə aid kitabların, foto və videomateriallarin sərgisi açılıb, sənədli filmlər nümayiş olunub. İctimaiyyət nümayəndələri, xüsusən, gənclər mərkəzə gələrək şəhidlərimizin xatirəsinə ehtiramlarını bildirirlər.

Deputat Mahir Dərziyev, Marneuli rayon Bələdiyyəsinin sədri Nəbi Abdullayev və başqaları çıxış edərək bildiriblər ki, Borçalının Faxralı, Kirəc Muğanlı, Qızılhacılı, Lecbəddin kəndlərindən, eləcə də Rustavi şəhərindən qanlı Yanvar hadisələrində və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində şəhid olan qəhrəmanlarımız var. Gürcüstanda yaşayan azərbaycanlılarla yanaşı, gürcülər də bu günü öz faciələri kimi qeyd edirlər.

Vurğulanıb ki, 20 Yanvar hadisələri gələcək nəsillərə təkcə faciə kimi deyil, eyni zamanda, xalqımızın milli qəhrəmanlıq günü kimi çatdırılmalıdır.

Sonda "Qanlı Yanvara aparan yol" adlı sənədli film nümayiş olunub. Bu filmin gürcü dilinə tərcümə olunması və Gürcüstan televiziyalarında nümayiş etdirilməsi təklifi irəli sürülüb.

## M.F.Axundzadə adına mədəniyyət muzeyində

Yanvarın 20-də Tiflisdə Azərbaycan Respublikasının Gürcüstandakı səfirliyinin və M.F.Axundzadə adına Azərbaycan Mədəniyyət Muzeyinin birgə təşkilatçılığı ilə Qanlı Yanvar faciəsinə həsr olunmuş anım mərasimi keçirilib.

Tədbir iştirakçıları muzeydə 20 Yanvar faciəsinə həsr olunmuş sərgiyə baxıblar.

Muzeyin direktoru Leyla Əliyeva tədbiri açdıqdan sonra şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra səfir Azər Hüseyn çıxış edərək 20 Yanvar faciəsinin Azərbaycan xalqının müstəqillik tarixindəki mühüm rolundan söz açıb, bu qanlı terror aktına hüquqi-siyasi qiymətin verilməsində ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərini xatırladıb.




Tədbirdə Gürcüstan Parlamentinin deputatları, akademik Temuri Başeleişvili, kənd təsərrüfatı komitəsinin sədri Qiqla Aqolaşvili, deputat Mahir Dərziyev, qanlı yanvar faciəsinin canlı şahidlərindən olan Zurab Kukatiladze, tarixçi alim Quram Marxuliya, Gürcüstan Mədəniyyət Nazirinin müşaviri Georgi Gegeçkori, Gürcüstanın Xalq artisti Xanzar Şomaxiya və başqaları çıxış edərək 1989-cu il aprelin 9-da Tiflisdə, 1990-cı il yanvarın 20-də Bakıda törədilmiş qırğınlar arasında paralellər aparıb, xalqlarımızın müstəqillik uğurundakı mübarizəsindən danışıblar.

Çıxışlarda Cənubi Qafqaz regionunda, eləcə də dünyada baş verən hadisələrə də toxunulub. Qeyd edilib ki, Parisdə 8 nəfərin qətlinə görə bütün dünya ayağa qalxdığı halda, bir gecədə Bakıda 150-dək insanın amansızcasına qətlə yetirilməsinə, eləcə də torpaqlarımızın işğalına və bu işğal zamanı minlərlə insanın həlak olmasına biganə yanaşılır. Bu cür ikili standartlara son qoyulmalı, cinayətlərdə əli olan hər kəs layiqli cəzasını almalıdır.

Sonda "Qanlı yanvara aparan yol" adlı sənədli film nümayiş olunub.

**Xətai Əzizov**

# Dənizdən gələn səda



Sabir ƏHMƏDOV

Əziz ana!

Əvvəla, salam. İkincisi, əgər zəhmət çəkib, mənim əhvalımı xəbər almaq istəsən...

Mən indi Dərbənd yaxınlığındayam. Çiskinli-dumanlı bir havadı. Əsla nigaran qalma, bircə gilə üşümürəm.

Dənizə qar yağır, amma vecimə deyil. Mən tək deyiləm, can ana.

Yaxşısı budur, hər şeyi olduğu təki sənə söyləyim. Bilərəm, gecən-gündüzün yoxdur.

Bilirəm, şəhərin bütün xəstəxanalarını, meyitxanaları dolaşmısan. Bircə saat gecikəndə, gəlib görürdüm ayağından asılmış quş təki eyvandasan...

Heç bir oğul öz anasına mənim danışacağım macəranı danışmaz.

Amma səni intizarda qoymayacam. Hər şeyi bilməlisən...

Bir dəqiqə... Huy, huy!

Yanvarın on doqquzundan iyirmisinə keçən gecə, haman qaramat gecə məni evdən buraxmaq istəmədin. Səni ovundurub inandırdım ki, heç nədən qorxma. Dostlarım oradadır, getməsəm inciyərlər.

Biz Tiflis prospektində, Biləcəri yoxuşunun şəhərə aşdığı yerdə dayanırdıq. Qoşun şəhərə soxulanda birinci bizimlə qarşılaşdı.

Tanklar yeridi üstümüzə. Heç birimiz inanmadıq. Dedik, bəs qorxudurlar, çatıb dayanacaqlar.

Tankların ardınca gələn soldatların avtomatdan atdığı güllələri fişəng sandıq...

Bir dəqiqə Huy-y-y! Dənizdə nə çox suiti varmış, ana... Ötdü getdi, başqa ovun üstünə yönəldi.

Hə, əziz ana! Həndəvərimdə neçə oğlan yıxıldı, yenə inanmadım.

Onda inandım ki, sinəmi güllələr odladı.

...Tanklar ötdü, avtomatlar xiyaban boyu gurladı. Biçib tökdülər. Ardınca yeni dəstələr, maşınlar gəldi.

Küçə fanarları söndürülmüşdü. Nə baş verdiyini, yoldaşlarımın başına nə gəldiyini öyrənməkdən ötrü dikəlib, boylanmağa çalışdım.

Yaxında bir neçə hərbi-sanitar maşını dayandı. Oradan soldatlar düşdülər. Yırğı başlandı. Aralarında saqqallı, qarasifət cavanlar vardı. Bunlar lap insafsızdılar.

Kolların arasına cumur, küçəyə sərilmiş şəhidlərin üstünü alır, avtomatdan, tapançadan atəş açır, can verəni yenidən gülləyə tutur, öləni bir də öldürürdülər.

Səslərini eşidirdim: "Bıstro ubrat!" Çtobı do utro niçeqo ne ostalos. Çisto!"

Kürüdülər, topladılar. Ocaq çatıb yandırdılar...

Bizi örtülü maşınlara mindirib, aradan çıxartdılar.

Şəhərin bu yanlarına yaxşı bələd deyildim. Amma anladım, maşınlar dəniz körpülərinə gedirdi.

Torpaqdan çıxıb, taxta döşəmə ilə sürdülər.

Yaxınlıqda bir neçə hərbi kater dolanmaqda idi. Körpüyə iki "Hidroqraf" gəmi bağlanmışdı. Ardımızca "Ural" avtomobilləri, BMP sanitar - "təcili yardım" gəlməkdə idi. Yükü tezcənə gəmilərə keçirib, arxadan çatanlara yol verilməliydi.

Bir dəqiqə... bu dənizdə nə çox suiti varmış. Pirşağıda bir kərə bir uşağı dişləmişdi. Demə, qudurubmuş suiti. Uşaq dəli oldu...

Bizi "Hidroqraf"ın göyərtəsinə götürdülər. Sahmanlı tərpənirdilər, xərəksalacaları vardı. Düşürəndə dönə-dönə yoxlayırdılar. Fanarları üzümüzə saldılar, gözlərimizə tuşladılar. Əyilib, nəfəsimizi imsədilər.

Tək-tək tapançalar açıldı, baltalar, kumbullar işə düşdü; kambuzdan iri bıçaqlar, kordalar götürmüşdülər.

Patrona qənaət etdilər. Tam sakitlik olsun deyə, əl-ayağı tərpənəni oradaca bitirdilər. Göyərtədə üstümüzə çadır çəkdilər. Xeylisini büküb, kəndirlə sarıyıb, türümlərə endirdilər.

Gəmi açıldı, körpüdən aralandı. Səhər açılmışdı.

Səfərə yollanacağımızı, amma haraya aparılacağımızı bilmədiyimiz halda, göyərtədə təşvişə düşdülər.

Demə, Xəzər gəmiçilik idarəsi hərbi gəmilərin buxtadan çıxmağına icazə verməmişdi. Bizim neftdaşıyan, quru yük aparan böyük gəmilərimiz limanın girişçıxışını, kanalları tutub dayanmışdılar.

Körfəz blokadaya alınmışdı. Radioratsiya ilə danışığa başlamışdılar.

Bumbuz dəmir anbarlardan nə söyləndiyini eşidirdik: hərbi donanma Xəzər gəmiçiliyindən tələb edirdi ki, yolu açsınlar. Bizimkilər qəti etiraz edib, bildirdilər: "Sizin gəmilərə baxmalıyıq. Apardığınız nədir?" "Hərbçilərin ailəsini köçürürük", - dedilər.

Xəzər gəmiçiləri bildirdi ki, bizim adamlar sizin gəmiləri yoxlamalıdır. Əks halda, bircə hərbi gəmi limandan çıxa bilməyəcək.

Üç gün öcəşdilər. Xəzər gəmiçiləri hərbi gəmilərin yerləşdiyi "Sabit Orucov" tankerinə keçdilər, qərargah orada idi. Deputat komissiyasının bütün səyinə baxmayaraq, onları hərbi gəmilərə buraxmadılar.

Donanma katerləri yaxınlaşdı. Bizim gəmiləri hədələdilər: "Yol verməsəniz, atəş açacayıq". Xəzər gəmiçiləri dediklərində dayanıb, hərbi komandanlığa bildirdilər: "Sizin gəmilərə meyit yüklənmişdir.

Gecə, qoşun şəhərə soxularkən, həlak olanlar körpülərə daşınmışdır. Siz törətdiyiniz cinayətin izini itirmək istəyirsiniz".

Keşikçi katerlərin top lülələri Xəzər gəmilərinə tuşlandı...

Yanvarın iyirmi ikisi, səhər saat onda buxtanı tutmuş Xəzər gəmiləri fit verməyə başladılar.

Əllidən artıq gəminin göyərtəsindən qopan haray Bakı üzərində dalğalandı... Şəhidləri dəfn edirdilər, ana! Mikrofonla yasin oxuyur, gəmilər ulartı qoparır, sədası zindan türümlərə çatırdı.

Eşitmişdik, şəhidləri Dağüstü parkda basdıracaqdılar. Bizimkilərdən kimsə qımıldandı: "Bizə də ora qismət olsa idi, elə bilərdim, başımıza heç bu qəziyyə gəlməyib".

Dördüncü gün, axşam hərbi donanma Xəzər gəmilərinə atəş açdı. Bizimkilər cavab verdi. Atışma düşdü. Dinc gəmilərimizin hərbi donanmanın top atəşlərinə dayanmağa gücü çatmadı. Tankerlərin neçəsi deşildi, yanğın düşdü. Mühasirə yarıldı.

Donanmaya qurudan kömək gəlmişdi, spesnaz soldatları gəmilərimizə doluşdular. Xəzər gəmiçilərinin bir qismi qayıqlara minib Zığ burnu, Əhmədli səmtə üz tutdular...

"Hidroqraf" açıq dənizə çıxdı... Bir dəqiqə, darıxma, ana. Bu dənizdə suiti nə çoxmuş. Ağ suitilərdi, batıb çıxır, gəlirlər...

Səhərə az qalırdı, bütün gecəni üzmüşdük.

Bakı limanında bizimkilər yaxınlaşa bilsəydilər, göyərtədə, türümlərdə kimin nə kökdə aparıldığını sezəcəkdilər.

Alatoranda göyərtə kranları işə düşdü. Türümlərdəki bağlamaları çıxartmağa əl qatdılar. Bəlkə, tonqal çatacaqdılar. Yox, bunların niyyəti özgə imiş. Brezent bağlamaları göyərtənin qırağına sürüdülər.

"Raz! Dva! Vzyali!" - meyit çatılmış mafraşlar dənizə quylandı.

Sonra... sahibindən ayrı düşmüş qollar, qıçlar, başlar tolazlandı.

Bu, bir məşəqqətdi. Bizi yandıran o idi ki, başımıza gətirdikləri bəs deyilmiş, ardımızca söyüş yağdırır, təpiklə vurub bağırırdılar: "Vot vam Şaxidlyar xiyabanı!"

Bir də gördük ki, ana, üstümüzdə vertolyotlar dolanır.

Köməyəmi gəlmişdilər? Endi, az qaldı dalğalara toxunsun. Qapı açıldı, oradan dənizə atılmağa başladılar.

Paraşütləri yox idi, dalğaların arasına düşür, batır... çıxmırdılar. Hə, bunlar desant deyilmiş, eləcə bizdənmişlər. Amma onları vertolyotla gətirmişdilər.

Beləcə, başı Həştərxan, ayağı Lənkəran - dəniz oldu məzarımız, can ana.

İstəkli anam! Gözümün işığı ana! Yadındamı, bir axşam bacılarım, sən, qonşu xala oturmuşduq bizdə.

Yaz idi, imtahanlarımız başlanmışdı. Mən sənə öz istəyimi söylədim. Dedim, Odessaya gedib, Ali Dənizçilik Məktəbinə girmək istəyirəm.

Razı olmadın: "Gözümün qabağında ol, balam mənim. Beş bacının bircə qardaşı, evimizin kişisi sənsən" - dedin.

Taleyin qismətinə bax, ana. Ömrümdə ilk dəfə sənin istəyinin əksinə çıxdım. Dənizçi olmuşam, mənim anam. Üzürəm... Əzəlcə sualtı qayıqların görünməz, dərin yolları ilə düz 5 gün dolandıq. Sonra hərəmiz bir diyara tuş olduq.

Kimi Şah dilində üzə çıxdı, kimi Türkanda. Axı, dəniz ölü saxlamır; şaqqalayıb



baş bir yana, bədən özgə yana atmışdılar, itib bataq. Çıxansa vardı. Bullada vertolyotlar alçaqdanca güllə yağdırır, dəlib deşirdi, getsin alta.

Türkan balıqçıları gördü. Kənd duyuq düşdü. Balıqçılar qayığa minib gəldilər. Xəzərə yiyələnmiş keşikçi katerlər pusquda imiş. Balıqçı da, onun gördüyü də yoxa çıxdı...

Bir dəqiqə. Ana, bircə dəqiqə. Bu dənizdə nə çox suiti varmış... Gör sənin dənizçi oğlun bir qol, bir qıçla necə sütüyür!

Dənizə qar yağır. Kiçik çillə girir bu gün. Kiçik çillə böyük çilləyə deyib: "Mən sənin vaxtında gəlsə idim, gəlinlərin əlini sənəyin qulpunda dondurardım".

Qarşıdan yaz gəlir.

Dənizə qar yağır, başıma qar ələnir. Xəzər Dərbənd altında necə burulğanlı imiş. Bizə daha nə qar əsər edər, nə külək. Nə dalğalar batırar, nə fırtına susdurar.

Yamacda Dərbənd mayağı yanır. Dalğaların qucağında sahilə üzürəm. Allah üzümə baxar, qədim Azərbaycan şəhərinin sakinləri görər məni. Görsələr, xilas edəcəklər.

Bacılarımı öp, məni gözləmə.

Sənin dənizçi oğlun.

# Qərənfili ağlatmaq



Cəlil CAVANŞİR

1990-cı il yanvar ayının 19-dan 20-sinə keçən gecə Sovet ordusunun Bakıda törətdiyi qətllər, insanlığa qarşı törədilmiş ən böyük cinayətlərdən biri kimi tarixə düşüb.

Azadlıq, müstəqillik üçün ayağa qalxmış bir millətin, xalqın haqq səsinin bu şəkildə boğmaq, Sovet hərb maşını üçün yenilik deyildi.

"20 yanvar" faciəsi əslində 18-ci ilin aprel işğalının, 1937-ci il hadisələrinin, Almaniyanın məğlubiyyətindən sonra baş verən qətliamların və iyrəncliklərin, Baltikyanı ölkələrin işğalının, Macarıstan və Çexoslovakiya hadisələrinin məntiqi davamı idi.

Sovet hərb maşını əzib keçməyə, öldürməyə və azadlıq arzularını beşiyində boğmağa adət eləmişdi. Bu onun işğalçı və totalitar xislətinə uyğun idi.

Bu yazıda "20 yanvar" faciəsinin siyasi tərəflərini yazmaq fikrində deyiləm. 25 ildir ki, bu barədə qəzetlər böyük-böyük yazılar yazır, xalq həmin günü matəm günü kimi qeyd edir, televiziyalar hərlədib-fırladıb oxşar süjetləri yayımlayır, müharibə mövzulu filmlər nə bilim neçə mininci dəfə nümayiş etdirilir.

Tarixə qanla yazılmış bu faciə müasir ədəbiyyatımızda hansı şəkildə öz həllini tapıb? Düşünürəm ki, hələ bu proseslərin ədəbiyyatımızda uğurlu həlli tapılmayıb.

Mənim oxucu kimi yadımda qalan qələm adamlarımızın ağır kədər hissi ilə qələmə aldığı ağılardır. Bəli, məhz ağılar! Bu faciə ilə bağlı yaranan ədəbiyyatda göz yaşı, ah-nalə, qarğış əsas aparıcı xətdir.

Biz hələ də "ağlayan qərənfillər"dən yapışıb qalmışıq.

Əfsus ki, "20 yanvar" faciəsi ilə bağlı ciddi, dünya səviyyəli ədəbiyyat nümunəsi yaranmayıb.

O dövrdə meydanlarda olan qələm adamlarımızın qələmə aldığı ədəbi nümunələrdə, göz yaşı və nifrindən başqa heç nə yoxdur. Edilən cəhdlərə kölgə salmaq fikrindən uzağam. Amma reallıq göz qabağındadır.

Sənədli kitablar və yazılar, müəyyən qədər poeziyamızda bu hadisənin əksi, sənədli kadrlar və filmlər ədəbiyyatımızın bu sahədəki boşluğunu doldurmur.

Əslində 18-ci ilin aprel işğalı, 37-ci ilin repressiyaları və sürgünlər də ədəbiyyatımızda kifayət qədər ciddi şəkildə işlənilməyib.

Yəqin ki, bu yazını oxuyan oxucular yüzlərlə şeir, hekayə, roman adı sadalayacaq. Amma mən yenə öz fikrimdə qalıram. Bu faciə ilə bağlı yazılan əsərlər özünü yazıq, çarəsiz, köməksiz göstərmək cəhdidir. Dünyanın isə bu söhbətlərə qarnı toxdur.

"Praqa baharı"nın süqutu və sovet tanklarının Praqaya girməsi ilə, 20 yanvar faciəsi arasında təxminən 20 illik zaman kəsiyi var. Çex əslli böyük yazıçı Kundera demək olar ki, bütün yaradıcılığı boyu bu ağrını, faciəni unudulmağa qoymayıb. Və sözün əsl mənasında şedevrlər yaradıb.

Kundera məsələyə qlobal yanaşmağı, faciəni başəriləşdirməyi bacarıb.

Bizim ədəbiyyat isə üstündən 25 il keçməsinə baxmayaraq hələ də qərənfili ağlatmaqdan əl çəkməyib.

Məncə düşünməyə dəyər...

### SEÇKİ YOLU İLƏ SEÇİLMİŞ İCRA BAŞÇISININ İRİMİQYASLI PLANLARI

# Qoqi Meşveliani: "Biz əhaliyə qayğı göstərməyə çalışırıq"



*Bolnisi rayon icra başçısı Qoqi Meşveliani "Bolnisi" qəzetinə geniş müsahibə vermişdir. Müsahibədən ən əsas məsələlər haqqında parçaları sizə təqdim edirik.*

***– Cənab Qoqi, 2014-cü ili qısaca qiymətləndirə və 2015-ci ildə Bolnisi icra hakimiyyətində nələrin olacağı haqqında əsas mesajı söyləyə bilərsinizmi?***

– İlk növbədə, qəzetin çap variantının yeniləşdirilməsi münasibəti ilə sizi təbrik etmək istərdim. Ümid edirəm ki, bu mövzu əhali tərəfindən maraqla qarşılanacaq və bizim ünsiyyətimiz üçün əsas ön şərtə çevriləcəkdir, çünki əhali ilə əlaqəyə çox böyük diqqət ayırırıq, bizim fikirlərimizin qarşılıqlı mübadiləsi çox mühüm bir məsələdir. Ötən ilə gəldikdə isə, sadə bir il olmadı. Bizim imkanımız var idi ki, büdcəyə müəyyən düzəlişlər daxil edək, amma büdcə gəlirlərindən irəli gələrək, vacib layihələri maliyyələşdirmək imkanımız olmadı, xüsusilə də ötən illərdə mövcud vəziyyətdən irəli gələrək, praktiki olaraq hazır və alınmış layihələr yox idi ki, hansının həyata keçirilməsi, bizim qiymətləndirməmizlə, mühüm effekt verəcəkdir. 2014-cü ili səfərbərlik ili kimi qiymətləndirmək istərdik, çünki onda maliyyə böhranı və sabitləşmə baş vermişdir. Mənim söylədiyimdən irəli gələrək, 2015-ci il bütün istiqamətlərdə müvafiq olaraq səmərəli olmalıdır, o cümlədən, infrastrukturun inkişafı istiqamətində də.

***– 2015-ci ildə təxminən 22-yə qədər planlaşdırılmış infrastruktur layihəsi vardır. Onlardan bir neçəsi haqqında ətraflı danışmaq maraqlı olardı. Məsələn, bildiyiniz kimi, Ratevani, Naxiduri və Kazreti stadionlarının reabilitasiyası gündəmdədir. Reqbiçilər üçün Naxiduri stadionu hazırlanır, onların reabilitasiyasına nə əsas olmuşdur?***

– Nəzərinizə çatdıraq ki, iki böyük idman klubunu maliyyələşdiririk: "Sioni" futbol və "Bolnisi qoçaqları" reqbi klublarını. Demək olar ki, bu günə qədər bu iki klubun lazımi infrastrukturu yox idi. Məlum olduğu kimi, Bolnisi mərkəzi stadionunu qəbul edilmiş standartlara uyğun gəlmədiyinə görə, son iki ildir ki, "Sioni" ondan öz meydanında oynadığı oyunlarda istifadə edə bilmir və müvəqqəti olaraq reqbi klubu ondan istifadə edir. Stadionun müəyyən mərhələ ərzində örtülməsi lazım gəldiyinə görə, drenaj sistemi zədələnmiş və hər hansı bir vətəndaşımız stadiona daxil olduqda real vəziyyəti görür və bu da hal-hazırda stadionun örtüyünün heç reqbi klubu üçün də yararlı olmadığını göstərir. Ən yaxın zamanlarda yazılı göstəriş gözləyirik ki, müəyyən kriterilərlə stadionun reabilitasiyasından sonra Bolnisi "Sioni"sinə imkan verilsin ki, milli çempionatın oyunlarını öz stadionunda keçirsin. Reqbi mövzusuna gəldikdə isə, reqbi üçün əvvəlcə Naxiduri stadionu ayrılmışdı. Yerli büdcə gəlirlərinin nəzərə alınması ilə Naxiduri stadionunun reabilitasiyası elə bir kondisiyaya gətirilməlidir ki, Bolnisidə yeni reqbi kompleksinin tikintisinə qədər reqbi komandasının ev oyunlarını keçirmək imkanları olsun.

***– Bizə məlumdur ki, Poladauridəki keçmiş hərbi baza ilə əlaqədar müəyyən planlar vardır və eləcə də burada gənclər düşərgəsi üçün lazımi infrastrukturun quraşdırılması haqqında da söhbət gedir.***

– Bəli, orada keçmiş hərbi baza (vaxtılə keçmiş pioner düşərgəsi) var idi. Hazırda onun reabilitasiyası haqqında müzakirələr aparılır. Hazırkı mərhələdə son qərar qəbul edilməmişdir, ərazini "Sioni" futbol klubunun bazası kimi düşünürük, hərçənd onun reabilitasiyasını yerli büdcənin gəliri kimi planlaşdırmırıq. Məlumdur ki, yaxın gələcəkdə dövlət futbolun inkişafının dövlət proqramı kimi maliyyələşdirməyi planlaşdırır və həmin böyük futbol proqramı başlayana qədər bu bazanın reabilitasiya layihəsi, eləcə də uşaqlar üçün futbol məktəbinin layihəsi hazır olacaqdır. Onun təqdimatını da proqramın çərçivəsində planlaşdırırıq. Poladauridə bir neçə çox maraqlı ərazilər vardır. Burada görüləcək işlər barədə idman naziri ilə danışacağıq. Düşünürük ki, uşaqlar üçün yay düşərgəsinin salınması üçün lazımi layihəni hazırlamalıyıq .

***– Cənab Qoqi, mövcud ekoloji vəziyyətə gəldikdə, bu mövzu illər boyunca müzakirə predmeti olaraq qalır. İcra hakimiyyəti bu məsələnin öyrənilməsinə və həllinə necə və hansı səviyyədə cəlb olunmuşdur?***

– İcra hakimiyyətinin öz ətraf mühit planı və kifayət qədər çoxlu istiqaməti vardır, o cümlədən axar suların və sənaye tullantılarının məsələsi vardır. Əlbəttə ki, bizim bu istiqamətdə birbaşa imkanlarımız məhduddur. İcra hakimiyyətinin həmin axar suların və havada tozlanmanın vəziyyətinə nəzarət xidməti yoxdur. Bunun üçün Ətraf Mühitin Mühafizəsi Nazirliyində müvafiq dövlət təsisatları vardır ki, onlar müxtəlif nəzarət yoxlanışlarını həyata keçirmək səlahiyyətindədirlər. Əlbəttə ki, onlarla intensiv əməkdaşlıq etməyi düşünürük və sənayenin özünün ekoloji audit qiymətləndirməsi haqqında maraqlı proqramın olduğunu qeyd etmək lazımdır. Şirkət xarici, yüksək təcrübəli, beynəlxalq şirkətləri dəvət etməyi düşünür, hansı ki, tam ekoloji auditi keçirəcək və real olaraq işimizin vəziyyəti aydın olacaqdır. Audit tövsiyələr verəcək ki, bu və ya digər problemi necə həll etmək olar. Problemi görürük, amma təşvişlə, sənaye üçün maneçilik törətmədən onun həlli qeyri-mümkündür. Əsas odur ki, ilk öncə növbəti peşəkar insanlardan müvafiq tövsiyələr alaq ki, problemi necə həll edə bilərik. Biz maraqlıyıq ki, əhaliyə qayğı göstərək, eləcə də bizim marağımız odur ki, sənayenin fəaliyyəti davam etdirilsin, insanlara elementar olaraq işlə təmin olmaq imkanı verilsin.

***– Yenə də büdcədə sosial paketlər mövzusu aktual və həcmlidir.***

– Bizim sosial yardım paketi, dediyimiz kimi, kifayət qədər həcmlidir. Səhiyyənin ən böyük istiqaməti olan maliyyələşdirmə proqramını ayırmaq istəyirəm. Tələbələrin, nailiyyətli idmançıların və əhalinin yaşlı üzvlərinin maliyyələşdirilməsi üçün birdəfəlik yardım paketini təyin edirik. Eləcə də, yeni layihəmiz var. Reytinq balı sosial agentlik tərəfindən 57000-dən az təyin edilən ekomiqrantlara, ahıllara, tənha qocalara və çoxuşaqlı ailələrə, onlar üçün elementar yaşayış şəraitlərini yaratmaq arzusundayıq. İnsanlar bizə müraciət edirlər ki, başa çatdırılmamış evlərin, bəzilərinin dam örtüyü yoxdur, bəzilərinin döşəməsi və s. Bu istiqamətdə aidiyyati komissiya yaradılıb, bu il pilot rejimində işləyəcək və ən yoxsul ailələri seçəcəkdir. Qiymətləndirmə kriterilərini işləyib hazırlayacağıq ki, subyektiv qiymətləndirmə imkanını minimuma endirə biləк. Ən pis halda, 10 ailə üçün minimal olaraq yaşayış şərtlərini yaradacağıq ki, onlara inkişaf etmək imkanı verilsin.

***– Planlaşdırılmış layihələrdən başqa, bir çox ideya da vardır, hansı ki,danışıqlar prosesindədir və icra hakimiyyətinin inkişafını və sonralar onun vətəndaşlarının xoş güzəranını təmin edəcəkdir.***

– Regional inkişaf fonduna Bolnisi tarixi kinoteatrının reabilitasiyası və şəhərin bir neçə yağış suları kanalının tikintisi , eləcə də, mövcud uşaq bağçaları reabilitasiyası layihələrini təqdim etmişik. Laiyhələr ön filtrləri nailiyyətlə keçmişlər. Yaxın zamanlarda konkret məlumatlar alacağıq ki, onları regional inkişaf fondu maliyyələşdirəcək, ya yox. Ötən ilki təcrübənin nəzərə alınması ilə bir çox layihələr almağa çalışdıq ki, bir neçəsinin bəyənilmədiyi, maliyyə edilmədiyi halda, əvəzetmə vasitəmiz olsun və onlar tərəfindən ayrılmış məbləği itirməyək. O qədər müxtəlif layihələrimiz var ki, keçən ilə oxşar olaraq təhlükə altında qalmağımız istisna olunur. Eləcə də, icra hakimiyyətinin inkişaf fonduna Bolnisi-Tamarisinin Marneuli-Tamarisi ilə birləşdirici yolunun reabilitasiya layihəsini təqdim edəcəyik. Orada ukraynalı investor tərəfindən inşa edilmiş alma bağı vardır və hesab edirik ki, yolun reabilitasiyası vacib olacaqdır, çünki fermerlərimizin öz gözləri ilə müasir texnologiyalarla salınmış alma bağını görmək imkanları olacaq və təcrübələri ilə paylaşa biləcəklər.

***– Cənab Qoqi, investisiyalar mövzusuna toxunduq və bu istiqamətdə danışıqlar var ki, munisipalitetə əlavə gəlir daxil olsun və iş yerləri olsun?***

– Müxtəlif istiqamətdə bir neçə cizgilərimiz vardır. Bildiyiniz kimi, Bolnisi bazalt ehtiyatının mühüm mənbəyidir. Maraqlı şəxslərlə görüşlərimiz olmuşdur. Onlar bu istiqamətdə inkişafı planlaşdırırlar, hərçənd, bu danışıqlar hələlik başlanğıc mərhələsindədir. "ABD Georgia"nın başqa istiqamətlə heyvandarlığı inkişaf etdirmək ideyası vardır. Maraqlı qrup da vardır, hansı ki, Tamarisi quşçuluq fabrikinin reabilitasiyası məsələləri haqqında düşünür. Bu fabrik 20 ildir ki, fəaliyyət göstərmir, hərçənd yerli kənd təsərrüfatının nəhənglərindən biri idi və bu fabrikdə çalışan bütün qəsəbə də, yüngülcə desək, pis vəziyyətdədir. Bu sənaye müəssisəsinin işə düşməsi bizim üçün çox vacib və əhəmiyyətlidir və sözsüz ki, maraqlı şəxslərə maksimal olaraq dəstək verməliyik ki, sənayenin işə düşməsi üçün imkanları olsun, istənilən dövlət resursu və ya beynəlxalq investorun maliyyəsini ala bilsinlər. İstixana təsərrüfatının inkişafı istiqamətində bir neçə layihə vardır, mineral sular ehtiyatının mənimsənilməsi ideyası da vardır, amma iqtisadiyyat çox həssas bir sahədir, xüsusilə də hal-hazırda dünyada baş verən proseslərin fonunda biznesmenlər ehtiyat edir və hər hansı bir məsələni dərindən öyrəndikdən sonra həll etməyə çalışırlar. Bunun üçün heç bir layihə haqqında əvvəlcədən heç nə deyə bilmərik ki, nə vaxt başlanacaq və ya nə vaxt bitəcəkdir və nə zaman imkan olacaq ki, insanlar işlə təmin olsunlar və ilk məhsulu buraxsınlar.

***– Rayon icra başçısı vəzifəsinə gələn kimi xüsusi diqqəti məhdud imkanları olan şəxslərə tərəf göstərdiniz, icra hakimiyyətinin ərazisində demək olar, obyekt yoxdur ki, orada əlillər üçün eniş-yoxuşlu yol olsun. Cənab Qoqi, bu mühüm məsələnin həlli planınızda varmı?***

– Praktiki olaraq, bizim tam bələdiyyə infrastrukturumuz, o cümlədən dövlət və özəl də, təəssüflər olsun ki, məhdud imkanları olan şəxslərin hüquqlarının nəzərə alınması xaricində qurulmuşdur. Biz göstəriş vermişik ki, reabilitasiya keçirilən istənilən yeni binada qeyd edilən şəxslərin maraqları nəzərə alınsın. Bu məsələnin öyrənilməsindən sonra konkret şəkil alındığında harada nəyin edilməsi lazımdır və bu kateqoriyalı şəxslərin hüquqlarının müdafiəsinə nə qədər dəstək verəcək, layihələr həyata keçirəcəyik ki, onların öz imkanlarını gerçəkləşdirmək imkanları olsun.

***– Artıq planlaşdırılmış layihələrin bir çox planlarına baxmayaraq həlli vacib olan məsələlər qalır. Bilirik ki, iki ildə ölkəni qurmaq olmaz, amma gələcəkdə həll olunası əsas məsələləri öyrənirsinizmi?***

– Əlbəttə ki, Bolnisidə bir çox problem vardır, bizim ilk qiymətləndirməmizlə, 90 milyon lari dəyərində ehtiyacları hesablamışıq. İnfrastrukturun inkişafı istiqamətində yerli büdcənin imkanları bu il 2 milyon larini aşmır, ötən il isə minimal vəsait 200 000 lari dəyərində idi. Ən yaxşı halda, regional inkişaf fondundan müxtəlif layihələr üçün 3 milyon lari əldə etdik. Təxminən 4 milyon lari su xəttinin reabilitasiyası layihəsi üçün, 4 milyona yaxın isə su kanalının birinci mərhələsinə işləndi. Bütövlükdə, biz bütün bunları cəmləşdirsək, 12-13 milyona çatmarıq. Əlbəttə ki, tələbatlar bütöv bir infrastrukturumuzun olması üçün böyükdür. İmkanlar isə daha azdır. Bizim üçün vacibdir ki, bu istiqamət üçün ayrılmış mövcud ehtiyatları səmərəli şəkildə idarə edə biləк. İşimiz haqqında ümumi təsəvvürümüzün olması üçün, büdcə mürəkkəb bir sənəddir və açıq olaraq onun redaksiya təhlili imkan vermir ki, icra hakimiyyətinin hansı prioritetlərə malik olduğunu başa düşmək mümkün olsun. Təsəvvürümüz olsun deyə, əsas məsələlərin səhiyyə və sosial sahə, idman və gənclik infrastrukturun olduğunu göstərə bilərik. İlk nəzərdən görünməyə də bilər, amma maliyyə baxımından son nəticəyə yaxınlaşanda küçə işıqları çox bahalı bir nemətdir, ona xidmət etmək və elektrik enerji xərcləri təxminən 800 min lariyə başa gəlir. Daha çox əraziləri işıqlandırmaq istəyirik, buna uyğun olaraq xidmət dəyəri də artır. Məhz bu səbəbdən müasir LED lampalarına keçməyi qərara aldıq. Lampa sınaqdan keçmiş, daha az elektrik sərf edir, ilkin mərhələdə bir qədər çox ödəməli olacağıq, çünki müasir texnologiyaları alırıq, amma son nəticədə və uzunmüddətli mərhələdə daha az ödəyəcəyik. İcra hakimiyyətinin ərazisini süpürmək-təmizləmək kifayət qədər bahalıdır və praktik olaraq demək olar ki, əhali bu istiqamətdə heç nə ödəmir. Yeni regional zibilxanalar planlaşdırılır, hansı ki, bərk tullantıların daşınması dəyərini artırır. Bu halda, müəyyən ödənişləri təsis etmək tövsiyələrimiz vardır ki, qalan məbləği icra hakimiyyəti ödəsin. Əlbəttə ki, bu ödənişlər minimal olacaqdır, amma əhali öz məişət tullantılarının daşınmasının təminatında bizə köməklik etməzsə, problemin həllinin başqa yolu olmayacaqdır. Eləcə də bələdiyyəyə aid nəqliyyatın maliyyələşdirilməsini də qeyd etmək lazımdır, təxminən 70-80 faizi dotasiyalıdır və bizim tərəfimizdən maliyyələşdirilir.



**Tərcüməçi: Xanım Əhmədqızı**
**№ 1, 20. 01. 2015 tarixli "Bolnisi" qəzeti**



## Zahid Qaralov haqqa qovuşdu

Tanınmış ictimai-siyasi xadim, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin və Siyasi Şurasının üzvü, partiyanın Səbail rayon təşkilatının sədri, riyaziyyatçı alim, pedaqoq, pedaqoji elmlər doktoru, professor Zahid Qaralov vəfat edib.

Z.Qaralov dünyasını Almaniya xəstəxanalarından birində dəyişib. Qeyd edək ki, məşhur 91-lərdən olan Z.Qaralov Azərbaycanın baş prokuroru Zakir Qaralovun əmisidir.

Qaralov Zahid İbrahim oğlu 10 iyul 1934-cü ildə Gürcüstanın Dmanisi (Başkeçid) rayonunun Ormeşən kəndində anadan olub.

Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) Fizika-riyaziyyat fakültəsini bitirib. 1995-2005-ci illərdə Milli Məclisin deputatı olub. Bir neçə dərslik və dərs vəsaitinin müəllifidir.

# DÜNYA, SƏNDƏN KİMLƏR KÖÇDÜ?



Bu günlərdə gözəl insan, istedadlı müəllim, qeyrətli eloğlu, qayğıkeş ata, ömrünü gənc nəslin təlim-tərbiyəsinə, yeni insan nəslinin yetişməsinə və formalaşmasına həsr edən dostum Məhəmmədəli müəllim dünyasını dəyişib Hqqa qovuşdu. O, böyüklə böyük, kiçiklə kiçik kimi davranırdı. Yerişində və duruşunda, gülüşündə və danışığında bir ağsaqqal samballığı, ziyalı kəsərliyi, insan xeyirxahlığı, ata zəhmi vardı. Bütün bu və ya digər yüksək insani keyfiyyətlərinə görə böyüyüb boya-başa çatdığı eldə, eləcə də, ətraf ellərdə, rayon pedaqoji kollektivləri arasında böyük hörmətə malik idi. Onu hamı sevir və rəğbət bəsləyirdi.

Onunla keçən əsrin səksəninci illərindən başlanan salam-kəlamımız yavaş-yavaş səmimi və ailəvi dostluğa çevrildi. Pəhmətlik Gülyaz ananın sağlığında da, ondan sonra da bu ailədən gediş-gəlişimi kəsmədim. Xəstə yatdığı vaxtlarda telefonla danışar, tez-tez yoxluyar, hal-əhval tutar, ürək-dirək verib könlünü alardım.

**XATIRLAMA:** Məhəmmədəli Məcid oğlu Məmmədəlizadə1948-ci ildə Bolnisi rayonunun Həsənxocalı kəndində anadan olub. 1964-cü ildə Həsənxocalı natamam, 1964-cü ildə Arıxlı orta məktəbini bitirib.1968-ci ildə indiki N.Tusi adına ADPU-nin fizika fakultəsinə qəbul olunub və 1972-ci ildə bitirib. 1973-1974-cü illərdə hərbi xidmətdə olub. 1974-1975-ci illərdə Azərbaycanın Saatlı rayonunda ixtisası üzrə müəllim işləyib. 1975-1980-ci illərdə Bolnisi rayonunun Ayorta kəndində,1980-1993-cü illərdə rayonun Bala Muğanlı kəndində və 1997-ci ildən 2014-cü ilədək Daşlıqullar kəndində fizika müəllimi işləyib. Keçən ildən amansız xəstəlik onu yatağa saldı və bir daha qalxmadı. Ölüm onu elə xəstə yatağında yaxaladı.

Əziz dostum, sən xeyirxah əməllərinlə, halal oturub-durmağınla, uzun illər gənc nəslin təlim-tərbiyəsinə çəkdiyin fədakar zəhmətinlə insanların, dost-tanışlarının, doğma və əzizlərinin qəlbində əbədi yaşayacaqsan, çünki sən cismən müqəddəs vətən torpağında uyuyan Gülyaz ananın qoynunda rahat yatsan da, Ruhən səni sevənlərin, sənə bağlı olan qəlblərin dərinliklərində odlu məşəl kimi yanacaq, tər-təzə gül kimi ətir saçacaqsan. Ruhun qarşısında baş əyirəm. Qəbrin nurlu, Ruhun şad olsun! Allah-Taaladan sənə cənnət-məkan diləyirəm! Amin! Doğma və əzizlərinə başsağlığı verir və səbr diləyirəm.

Səmimi dostun Əlixan Yəhyaoğlu

## BAŞSAĞLIĞI

Bolnisi Mədəniyyət Mərkəzinin və "Ümid" qəzetinin əməkdaşları Azərbaycan Televiziyasının Gürcüstan üzrə xüsusi müxbiri Şahismayıl Şəmmədoğluna oğlu

**Azərin**

faciəli ölümündən kədərləndiklərini bildirir, mərhumun ailəsinə, doğma və əzizlərinə dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin! Amin!

Bolnisi rayonunun Daşlıqullar və Həsənxocalı məktəbinin pedaqoji kollektivləri iş yoldaşları

**Məhəmmədəli Məcid oğlunun**

ölümündən kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin! Amin!

# XATİRƏLƏR DİL AÇANDA

*Bir yandan boşalır, bir yandan dolur,*
*Sirrini verməyir sirdaşa dünya.*

**Səməd Vurğun**

Biri var idi, biri yox idi, gəlimli-gedimli, ölümlü-itimli dünyada Cahangir adlı uşaqlıq illərindən bir dostum var idi. O, 1922-ci ildə Lüksemburq (indiki Bolnisi) rayonunun Qoçulu kəndində dünyaya göz açmışdı. Sadə və mehribanlığı ilə başqa uşaqlardan fərqlənən gülərüzlü Cahangirin dodaqlarından təbəssüm əskik olmazdı. Məndən bir yaş kiçik olsa da, dost idik. Hər ikimiz 1934-cü ildə Qoçulu ibtidai, 1937-ci ildə isə qonşu İmirhəsən yeddiillik məktəblərini əla qiymətlərlə başa vurduq.



Biz Tiflis və Marneuli şəhərlərində fəaliyyət göstərən pedaqoji texnikumlarda təhsil almağa hazırlaşırdıq. Cahangirin atası Əmir dayı elin bamərə kişilərindən biri idi. O, atam Kərəmlə dostluq edirdi.Atam sürgündə olduğu zaman Əmir dayı tez-tez bizə baş çəkirdi. Bir dəfə Əmir dayı bizə gəldi və qısa söhbət etdikdən sonra, üzümə baxıb mətləbə keçdi:

- Aya, a bala, a Dünyamalı, Allaha şükür, oxuyuf bir az yazı-pozu bilerziniz. Eşitdiyimə görə Cəhəngiri toyluyuf böyük məktəbə aparersan. Nə ki, oxudunuz bəsdi. "Çox oxuyanın ağlı olmaz" deyiflər. Allaha bax, "daşı ətəyinnən tök", bu pis yolun yarısınnan qayıtmax da xeyirlidi. Ay oğul, el bizə nə dəjəh? Bir də ki, mənim Cəhəngiri, anan Xatın bajının da səni oxutmağa güjü çatmaz...

Mən onu sakitləşdirmək məqsədilə rəhbər vəzifədə işləyənlərin həyat tərzindən danışıb inandırdım ki, "çox oxuyanın ağılı çox olur. Ona görə də oxumaq lazımdır".

Beləliklə, mən 1937-ci ildə Tiflis, Cahangir isə Marneuli Azərbaycan Pedaqoji texnikumuna qəbul olduq. Bir-birimizdən uzaq düşsək də, hərdən görüşür, vəziyyətimizdən halı olurduq. Uşaqlıq və gəclik illərindən başlanan dostluğa Cahangir dünyasını dəyişənə qədər sadiq qaldıq. Dost itgisi ağır olur. Onun yoxluğu qəlbimi göynədir. Xatirəsi ürəyimdə gülərüzlü Cahangir kimi yaşayır.

Cahangir Qəhrəmanov texnikumun III kursundan Lüksemburq (Bolisi) rayonunun Cəfərli kənd ibtidai məktəbinə müəllim göndərildi. Burada 5 il müəllimlik fəaliyyəti dövründə, qanlı-qadalı müharibə illərində çətinlik çəkən və atasız məktəbli ailələrinə əlindən gələn yardımı əsirgəmirdi.

Müharibə illərində KİŞİLƏR "vətənin" müdafiəsinə getdiyini, arxa cəbhədə kadr çatışmamazlığını nəzərə alaraq, rayon partiya komitəsi Cahangir müəllimi Kərim oğlu Rüstəmin sədr olduğu Qaratikan kolxozuna mühasib göndərir. O, on ilə yaxın mühasib işlədiyi Qaratikanda camaatının hörmət və rəğbətini qazanır. 1950-ci ilin sentyabrından isə Qoçulu orta məktəbinə müəllim təyin edilir və ömrünün sonuna qədər bu elm ocağında müəllim işlədi. Onun əmək fəaliyyəti Gürcüstan hökuməti tərəfindən qiymətləndirilərək "1941-1945-ci il Böyük Vətən müharibəsində əmək rəşadətinə görə", "Sosializm yarışının qalibi", "Qafqazın müdafiəsinə görə", "Əmək veteranı" medallarına layiq görülmüşdü.

**XATIRLAMALAR**: Qoçulu orta məktəbinin pedaqoji kollektivi səhnə əsərlərinin tamaşasını nümayiş etdirməyi ənənəyə çevirmişdi. Bir dəfə "Dursunəli və ballıbadı" adlı (təəssüf ki, müəllifini unutmuşam) bir pərdəli dram əsərinin tamaşasını hazırlamışdıq. Klubda adam əlindən tərpənmək olmurdu. Hamı pərdənin açılmasını səbrsizliklə gözləyirdi. Dursunəli rolunu oynayan Cahan-gir müəllim hələ də, yox idi. Tez Məhəmməd Ömərovla onlara getdik. Bizi kişi cüssəli Zeycan xanım qarşıladı. O, əl-qolunu işə salıb yüksək tonla dedi:

-Gedin, gedin! Cahangiri mən qoymuram getməyə. Özünüz ağa-bəy rolunu oynayırsınız, Cahangiri isə fağır görüb həmişə ona nökər rolu verirsiniz.

Oğlum Xaqani Cahangir müəllimin sinfində oxuyurdu. Bir dəfə dostuma dedim:

-Cahangir müəllim, Xaqani dərsini bilməyəndə, nadinclik edəndə onu tənbeh et, qulaqburması ver. Əmi kimi buna sənin ixtiyarın çatır.

-Dünyamalı müəllim, heç bir şagirdi tənbeh eməyi, ona əl qaldırmağı bacarmaram, çünki döyülən uşaqlar həmişə qorxaq, döyülməyənlər isə "jivoy" (diribaş) olurlar.

Cahangir Əmir oğlunun şagirdlərindən Məhəmməd Çıraqov (elmlər doktoru), Ömər Ömərov (əməkdar memar), Vəkil Xəlilov və Calal Novruzov (elmlər namizədləri) Bakının ali məktəblərində çalışır, Vəli İsmayılov (elmlər doktoru) və Adil Əhmədov (elmlər doktoru) isə dünyalarını dəyişiblər.

Cahangir müəllim gözəl ata, namuslu ailə başçısı idi. Oğlu Füzuli Gəncə ADPU-nin tarix fakultəsini, qızları Elmizan, Zimistan və Vənnahar (Qoçulu ümumi məktəbinin direktor müavinidir) həmin ali məktəbin filologiya fakultəsini bitirmişlər.

Uşaqlıq və gənclik dostum Cahangir Qəhrəmanov 2002-ci ildə, 81 yaşında dünyasını dəyişdi. Onun əziz xatirəsi qoçuluların qəlbində əbədi yaşayır və yaşayacaqdır.

**İDİN**

*Cahangir müəllim, göz açanda sən,*
*Ellərin işinə sən gərək idin.*
*Tər-təzə, ətirli qızılgül kimi,*
*Gülüstan bağında gül-çiçək idin.*

*İlahi qüdrətdən gəlmişdi payın,*
*Tanrı töhfəsiydi haqqı-sayın.*
*Paklıqda, saflıqda olmadı tayın,*
*Körpə uşaq kimi çox kövrək idin.*

*Bir qaydadır: üzə gülən çox olur,*
*Nadan sözü zəhər olur, ox olur.*
*Dünyaya gələnlər bir-bir yox olur,*
*Dostlar arasında sən ki, tək idin.*

*Sözündə düz idin ərənlər kimi,*
*Gələcək günləri görənlər kimi.*
*Zilə köklənmişdi könlünün simi,*
*Oğluna, qızına nur-ipək idin.*

*Əyilmədin ağır, çətin işlərdə,*
*Başı uca görünərdin hər yerdə.*
*Mərifətdə, qanacaqda, hünərdə,*
*Qohum-əqrəbaya bir örnək idin.*

*Zeycan xanım hönkür-hönkür ağladı,*
*Oğlun, qızın sinəsini dağladı.*
*Zalım fələk yaman yerdə haqladı,*
*Günəş kimi yanan saf ürək idin.*

*Üzü ağ yetişdin səksən bir sinə,*
*Namərd kölgəsində tikmədin binə.*
*Dünyamalı bələd idi qəlbinə,*
*Düşmənin başında dəyənək idin.*

**Dünyamalı KƏRƏM**
*"Şərəf" ordeni kavaleri,*
*Gürcüstanın əməkdar jurnalisti,*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*

**DÜZƏLİŞ**

Qəzetimizin 25.12.2014 tarixli, I sayının 2-ci səhifəsində "Longinoz Həsənov" yazısının aşağıdan dördüncü sətrində səhv getmiş "mübarək olmasun" ifadəsi "mübarək olsun" kimi oxunmalıdır.

Həmin tarixli sayın 11-ci səhifəsində "Nəsib baba" oçerkinin yuxarıdan 10-cu sətirdəki (1918-ci ildə) ifadəsi isə (1872-ci ildə) kimi oxunmalıdır.

Qəzetimizdə buraxılan bu səhvlərə görə redaksiya oxuculardan üzr diləyir.

# AYSELİN YUXUSU

**(hekayə)**



**KAMURAN**

***Kamuran (Kamran Zakir oğlu Kiryakov) 1992-ci il dekabrın 1-də Marneuli şəhərində anadan olub. Marneuli şəhərindəki 8 saylı orta məktəbi bitirib. Hazırda İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitinin humanitar fakültəsinin fəlsəfə bölümünün 3-cü kursunda oxuyur. Esse və hekayələri "Regionpres", "Varlıq" qəzetində və Azərbaycanda nəşr olunan "Ədəbiyyat qəzeti"ndə dərc olunub. "Ümid" Kamurana yeni yaradıcılıq uğurları arzulayır.***

– Həm də gün ərzində əllərimiz müxtəlif yerlərə təmas edir. Yəni, əllərimiz bizim üçün mikrob

daşıyıcılarıdı; əllərimizi tez-tez sabunlamalı və əgər əllərimizi yumağa şərait yoxdursa, o zaman onları üzümüzə toxundurmamağa çalışmalıyıq...

Mövzusunun insan anatomiyası olan dərsin yarısı geridə qalmışdı. Aysel mövzunun təsiri altında uzun-uzadı əllərinə baxaraq, "hazırda əlimdə mənim kimi canlılar var?" – deyə düşünürdü və xəyalında həmin canlıların nəyə bənzədiyini dəqiqləşdirməyə çalışırdı. Onun iri və qara gözlərinə diqqətlə baxılsaydı, orda toppuş əllərinin güzgüdəki kimi şəffaf əksini görmək olardı. Son sırada oturan Aysel sağ əlini qaldıraraq bir suala cavab almaq istəyini bildirdi. Lakin əlini qaldırarkən çox diqqətli və ehtiyatlı idi, çünki əlindəki canlıların xəsarət almasından çəkinirdi.

– Biz həyatda qalmaq üçün başqa canlıları öldürürük. Əslində bizim onları öldürməyə

çalışdığımız kimi, onlar da bizi öldürməyə cəhd edirlər. Yəni doğrudan da, ulu babamın dediyi kimi, həyatda qalmaq məntiq yox, gücdən asılıdı? Söhbət iki "düşmən" canlının təbiət tərəfindən bir yerə gətirilməsindən gedirsə, onlardan biri mütləq ölməlidi?

Ayselin açdığı maraqlı mövzu şagirdlərin ovqatını yüksəltdi və bir anda bütün gözlər Aysələ dikildi. O, diqqətlərin üzərində olmasına alışıq deyildi, ümumiyyətlə ona baxılmasını belə sevmirdi və buna görə də dilləndiyi üçün çox mətəəssir olmuşdu.

– Həyat qəliz məsələdir, bunu anlamaq üçün yaşa dolmalısan, təcrübə və

dünyagörüşün olmalıdır, – müəllim dedi.

İçi həyəcan və tərəddüdlə dolmuş Aysel bir dəfə dilləndiyindən artıq susmaq üçün gec olduğunu düşünərək dedi:

– Mən hələ yeniyetmə olduğumu bilirəm. Lakin mənim istədiyim sizin bir böyük olaraq

fikrinizi bilməkdir. Sizcə həyat nədir?

– Şey... məncə... – müəllim kəkələməyə başladığı an şagirdlərdən biri icazəylə fikir

bildirmək istədi. Bu Məhbarə idi. Sözə başladı:

– Həyat rüşvətdi. Nə qədər ki, rüşvətimizin üstü açılmır, ölüm bizi tanımaz.

Bu andan etibarən şagirdlərin hamısı fikir söyləmək üçün sıraya düzüldülər. Fabienne adlı sarışın, uzun boylu, incə bir qız söhbətə qarışdı:

– Həyat sevgidi. İnsan yalnız sevərkən yaşayır. Ölüm sevgini itirməkdi. Heç sevməyi

bacarmayanlar isə doğulmağı bacara bilməyənlərdi.

Abel:

– Həyat ağıldı. Ağıl yaşadığını bilməkdi. Ağılsızlıq nəinki ölümü dadmaqdı, üstəlik, həm də

intihardı.

Niharika:

– Həyat məndi.

– Həyat ölümdü! – ara yerində kimsə dedi.

Adam:

– Həyat faydalı bir hədiyyədi. Hədiyyə gücdə olan zaman ondan faydalanmalıyıq. Gücdən

düşməsi isə ölümdü.

Rodya:

– Həyat yalnızca vicdanda əks olunur.

– Həyat döyüşdü; məğlub olan ölər... və hər kəs bir gün məğlub olar, – Aysel ulu babasının səsiylə ürəyində düşündü.

Ayselin ulu babası düz yüz altı yaşına kimi yaşamışdı. Aysel onunla bağlı hadisələri hər zaman qorxuyla xatırlayırdı. O, ölməmişdən əvvəl səsini itirmişdi, danışığı küləyin qapı dəliyindən mütəmadi olaraq üfürməsindən yaranan vıyıltıları xatırladırdı və, üstəgəl, səsindəki xışıltı da səsin qorxuncluğunu artırırdı. Sonuncu sözləri bu olmuşdu: Ölüm insanı ağuşuna aldığında həmin an sahib olduğun təəssüratlar sonsuzadək ruhunu himayəsində saxlayar.

Zəng çalındı. Fikrini söyləyə bilmədiyi üçün mütəssir olmuş və pisikmiş bəzi şagirdlər bir şəkildə başlarını sallayaraq sinifdən çıxmağa başladılar.

Aysel girdə gövdəsini partaların arasından güclə keçirə-keçirə qapıya yaxınlaşanda tövşüyürdü, alnında tər damlaları əmələ gəlmişdi və müəllimiylə sağollaşdığı zaman səsinin titrədiyini sezdi. Yolda addımlarının ardıcıllığını düşünə-düşünə iki gün əvvəlki ziyafət yadına düşdü. Səbəbini tam olaraq anlamadığı ziyafət barədə düşünərkən, "hər kəs ildə bir dəfə niyə mal-qoyun kəsməlidir?" – deyə ağlından keçirdi. Atasının boşqabda qurbanlıq qoyunun ürəyini gətirib qarşısına qoyaraq, "ürəyimi sənin üçün ayırmışam, əzizim" – deməsindən də bir şey anlamadığı yadına gəldi. Təxəyyülündə kəpənəklər uçuşan Aysel ürəyi gördüyü zaman bir anda həyəcanla: – Ürək budurmu? – deyə soruşdu.

"Güclü olan həm də həyatda qalandır" - ulu babası demişdi, "məntiq bu məqamda işləkliyini itirər". Yolda güzgü kimi pəncərə şüşələri olan mağazanın önündən keçərkən öz əksini gördü və dayanıb bir az özünü seyr etdi. Yöndəmsiz bədəni, girdə gövdəsi, toppuş qolları və sonda da buxağına baxdıqda, "Gombul" - deyə dodaqaltı mızıldandı. "Həyatda əsas olan güddü, gerisi çərənçilikdi» - düşünərək sözünə davam etdi. Lakin içi-nin ikrahla dolduğunu şüşə əks etdirmirdi.

Evə çatdığında babasını "Dünya gerçəkləri" adlı bir bəlgəsəl seyr edən gördü. Çiynindən çantasını almadan sakitcə babasının yanında oturub seyr etməyə başladı. Hələ də dərisində yaşayan canlılar üçün ehtiyatlı hərəkət edirdi. Bəlgəsəl isə sırf dünyanın insanlıq tərəfindən aldığı zərər haqqında idi. Ayselin iri və hər an maraq-dan irilənən bəbəklərində kadrların əksi hər saniyə bir az daha şəffaflaşırdı; estetika adı altında heyvanlara edilən qeyri-etik davranışlar, təbiətin zibillənməsi, korlanması, ağacların azalması, səhlənkarlıqdan törəyən yanğınlarla daha da kiçilən meşə sahələri, neftin müxtəlif yollarla yandırılaraq havanı korlaması, çəkilən yolların artmasıyla torpağa dəyə bilməmiş geri buxarlanan yağışlar... bütün bunlar Ayselin köksündə öz əksini tapırdı, onu mütəssir edirdi. Hətta seyr etdiklərinə əsasən məntiqi fikir yürütməyə başladı: Vulkan püskürmələrinin azalmasının yandırılan neftlə bir bağlılığı ola bilərmi? Və ya havanın korlanması əsasında ozon təbəqəsinin yırtılması insanlığın aqibətinə necə təsir göstərə bilər? Bir də riyaziyyat istedadından istifadə edərək başqa bir qənaətə də vardı: Əcəba tərəzinin bir tərəfinə bəşəriyyətin dünyaya gətirdiyi faydalı, bir tərəfinə də zərərli xüsusiyyətlərini qoysaq hansı ağır gələrdi? Əgər faydalı xüsusiyyətləri ağır bassaydı, deməli hazırda dünya əvvəl olduğundan daha yaxşı və əlverişli olardı, - Aysel öz-özünə dodaqaltı pıçıldadı. Dərin düşüncələrdən ayılanda xəbərsiz sol əlini üzündə gəzdirdiyini görərək ehtiyatsızlıq etdiyini düşündü və əlini dizinə qoydu.

Yerdə qalan vaxtda çox şey yaşamadı, ya da düşüncəsi adıgedən mövzuda olduğundan diqqətini başqa heç nəyə verə bilmirdi. Axşam işdən gələn valideynləri ilə masa arxasında yemək yeyəndən və suallara "hə-yox" cavabını verəndən sonra heç bir vəchlə dodaqlarını aralamadı. Gecə yatmağa çalışdığı zaman gözünü qaranlıqda gəzdirir və boşluqda zehni müəyyən epizodlar yaradırdı. Həmin əsnada gözlərini pəncərədən ulduzlara dikdi. Təxəyyülü çox bulanlıq, çox yuxulu idi və anladığı, lakin idarəsini itirdiyi təsəvvürlər və canlandırmalar ona sirli duyğular yaşadırdı. Əvvəla gözü ulduzlardaykən yeni gəlmiş vaksina üçün 3 gün əvvəl həkimə getdiyini gördü və bu təsəvvüründə iynəni görən kimi ulduzları da ucu düz dünyaya tuşlanmış iynələrə bənzətdi. Gözləri yavaş-yavaş yumulmağa başladığında bütün təsəvvürləri işləkliyini dayandırdı və yuxuya getdiyindən saatlar sonra həmin təsəvvür qalıntıları təkrar hərəkətə keçməyə başladı; lakin bu səfər daha rəngarəng, daha canlı və real görünürdülər. Hərçənd ki, yuxu qeyri-adilik təcəssümü idi, lakin, həmişə olduğu kimi, yuxu divarlarına xof hopmuşdu. Aysel, səhər oyandığı zaman hər şeyin öz minvalında olduğunu düşünmüşdü. Lakin, adəti üzrə, səhər çayı içməyə endiyi zaman babasını yenə televizor seyr edən görmüş və bu səfər əvvəlkindən heç geri qalmayan, hətta ondan da mütəəssir edici bir xəbər eşitmişdi:

– Astronom və biofizika mütəffəkkirlərinin ortaq bəyanatına görə, bəşər tarixində bu gün bir ilk yaşanıb. Bəyanatda qeyd olunur ki, Kainat canlıdı və Dünya da onun həyat qaynaqlarından biridir. İnsanlar bu günə kimi bir şeyin canlı olması üçün müəyyən şərtlər qoşmuşdu, lakin bu mövqe yanlış imiş. Bu məlumatlara əsasən, Dünyaya zərər verən insan çox təhlükəli bir virus, dağıdıcı potensial sahibi olan orqanizmdır. Günbəgün artan bu "virus"u yox etmək üçün Kainatın tez bir zamanda tədbir görməsi gözlənilir.

Göz bəbəkləri böyümüş Aysel daxilindən bir şeylərin qaynadığını hiss edərək istilənməyə başladı. İçinə xof hopmuş titrək səslə babasına müraciətlə dedi:

– İndi bizə nə olacaq?

Babası boynunu sol çiyninin üstünə çevirərək dərin düşüncələr içində ona baxdı, gözləri donuq və boş idi, duruxmuşdu və sanki çıxılmazlıq bataqlığına düşmüşdü. Lakin, adəti üzrə, həmişəki kimi mehriban və bir az da ruha xitab edən bir səslə dedi:

– Doğulmamışdan əvvəl nə idiksə, ölümdən sonra da o olacağıq.

Cümləni elə xoş, elə rahat, elə nüfuz edici, elə inandırıcı dedi ki, bir anlıq Ayselin bütün təlaşı yoxa çıxdı.

Cümlənin bitməsiylə birlikdə bir gurultu qopdu. Elə bil birlikdə qulaqlar kar oldu, işığın parıltısıyla baham gözlər seçmə qabiliyyətini itirdi və şokla birlikdə də şüur qapandığı kimi hərşeyi sonsuz bir heçlik əvəz etdi. Aysel qan-tər içində gözlərini açdığında özündə həddi-hüdudu olmayan görmə istəyi hiss etdi və səndələyə-səndələyə qaranlığı yararaq birtəhər işığı yandırdı; ətcəbala kimi döyünən ürəyini hiss etmək və əsasən də əşyalarını görməsi içini rahatlatdı. Nəfəs darlığını yox etmək üçün pəncərələri açdı və göydəki ulduzlara baxaraq qəlbindən bir sual keçirdi: İnsan nədi?..





**İLYA ÇAVÇAVADZE**

***

Onda duyaram cənnət dadını,
Sevdiyim təki sevəsən məni.
Nazü-qəmzəylə çəkib adımı,
Söyləsən mənə məhəbbətini.

Eşqli baxışla hey baxam sənə,
Başını qoyam üstə sinəmin.
Öpmək istərkən dayanam yenə,
Qızmamağına olmayam əmin.

Sənin qəlbinin şirin səsini,
Necə bir dua, elə dinləyəm.
Bəd fikirlər də alsa nəfsimi,
Hamısını bir-bir qovam, teyləyəm.

***

Ruhum qaraldı, ətrafda zülmət,
Soyuq məskundur könül evində.
Yoxdur ruhumçün gərəkli qida,
Nə bir nifrət də, nə də sevgidə.

Çox vuruşmuşam pisliyə qarşı,
Hey bərkitmişəm zəif qolumu.
Çox da yenildim, ancaq sınmadı
Kiminsə önündə məğrur qürurum.

Kimə ki uydum, dəyməzdi cəngə,
Mən bu səhvimi indi bilmirəm.
Onların qarı düşmənliyinə,
Nə ağlayıram, nə də gülürəm.

Ruhum qaraldı, ətrafda zülmət,
Soyuq məskundur könül evində.
Yoxdur ruhumçün gərəkli qida,
Nə bir nifrət də, nə də sevgidə.

*Tərcümə*
**Oqtay Kazımovundur**



**ELMAN SƏMƏDOĞLU**

***1958-ci ildə Bolnisi rayonunun Muşevan (Dəllər) kəndində anadan olub. Gəncə ADPU-nin filologiya fakültəsini bitirib. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşıdır.***

**ÇİNAR**

Qoy sənə doyunca baxım, ay Çinar,
Baxım namus kimi, baxım ar kimi.
Səni bu dünyaya tanıtmaq olar,
Əmimdən yeganə yadigar kimi.

Bu məğrur duruşun dünyaya dəyir,
Üzə vurmamısan kədəri, qəmi.
Barsız söyləməyə dilim gəlməyir,
Həsrət ağacı da bar gətirərmi?!

De, kimə açırsan, sirrini, kimə;
Daha bilirsən ki, yer nə, göy nədir.
Bir düşmən gülləsi dəyib əmimə,
Hələ qəlpələri səni göynədir.

Saçına tez düşər illərin dəni,
Bir evin sahibi, yiyəsi ol sən.
Qınayan olarmı görəsən məni,
Sənə əmioğlu deyəsi olsam!

**BAĞIŞLA**

Qaratoyuq, qar qapımda qalanıb,
Ömür-günüm uralanıb, bağışla!
Bir ocağın istisinə qalanıb,
Bir yuvanı kor qoyanı bağışla!

Qaratoyuq, qara qaşım qanlıdı,
Toxunmadım, balaların canlıdı.
Nə zamandır quşlar mənlə qanlıdı,
Donub qalmış kar qayanı bağışla!

Qaratoyuq, qarım vardır, qalam yox,
Qürbət eldə halıma da qalan yox.
Əvəzinə verməyə də balam yox,
Bu yaşında gor oyanı bağışla.

Qaratoyuq, qəmlə qənşər qalmışam,
Elə bil ki, insan deyil, halmışam.
O mənəm ki, qiyamətə qalmışam,
Dərd sərəni, qəm yuyanı bağışla.

Elə bilmə, Elman sənlə yağıdı,
Nə cavandı, nə də ahıl çağıdı.
Kim deyir ki, həyat cənnət bağıdı?
Öz ömründən tez doyanı bağışla.

***XALQ MAHNILARIMIZDAN NÜMUNƏ***

# Sarı gəlin

Saçın ucun hörməzlər,
Gülü sulu dərməzlər,
Sarı gəlin.
Bu sevda nə sevdadır
Səni mənə verməzlər

Neynim aman, aman,
Neynim aman, aman,
Sarı gəlin.

Bu dərənin uzunu,
Çoban, qaytar quzunu, quzunu,
Bu dərənin uzunu,
Çoban, qaytar quzunu, quzunu.
Gün ola mən bir görəydim,
Nazlı yarımın üzünü.

Neynim aman, aman,
Neynim aman, aman,
Sarı gəlin.



**FATMA ASLAN**

***1958 aprelin 10-da Bolnisi rayonunun Faxralı kəndində anadan olub. Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirib. 1 saylı Faxralı ümumi məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimləsi işləyir.***

***ÖZÜMDƏN GİZLƏNƏ BİLMİRƏM***

İçimdə sıxıntı var,
Canım sıxılır yaman.
Qəlbimdə gizli təlaş,
Anlaşılmaz həyəcan.
İstəyirəm gizlənim,
Kimsə tapmasın məni.
Nə bircə səs eşidim,
Nə də görüm kimsəni.
Ayrı qalmaq istədim,
Dünyanın dərd-sərindən.
Mən yayınmaq istədim,
Dünyanın gözlərindən.
Sandım tək qalan zaman,
Hər şeyi unudacam.
Quş kimi yüngülləşib,
Rahat nəfəs alacam.
Ancaq unutdum ki, mən,
Hər kəsdən qaça billəm.
Fəqət özüm-özümdən
Qaçıb gizlənəmmərəm.
Yalqız qalınca insan
Danışır öz-özüylə.
Baxır cümlə aləmə,
Ürəyinin gözüylə.
Olunca odlanacaq,
Ürək dərdin yuvası
Közərib qorlanacaq.
Dünyanın gözlərindən,
Gizlənə bilsəm də mən,
Amma gizlənəmmərəm,
Heç zaman öz-özümdən.

**Tale ulduzunu özüm seçərəm**

İstə sən, gəl məndən günəş istə,
Səmanın bağrından gətirim, gəlim.
İstə sən, gəl odu, atəşi istə,
Zevsin əllərindən götürüm, gəlim.

İstəsən, sevgilim, sən Ayı istə,
Başına tac edim nur çələngini.
İstəsən lap bütün dünyanı istə,
Gətirim güllərin min bir rəngini.

Bir ulduz istəsən mavi səmadan,
Ovuclayıb zəmi kimi biçərəm.
Ulduz karvanından, o kəhkəşandan,
Tale ulduzunu özüm seçərəm.

İstə, sevdiciyim, hər nə var, istə,
Sevən ürəyim də təkcə sənindir.
Ruhum, cismim sənin, varlığım sənin,
Dünyamız əzəldən sevənlərindir.
...sevənlərindir.



**RAFİQ HÜMMƏT**

***Hörmətli Rafiq Hümmət! Sizi 50 - yubiley yaşınız münasibətilə səmimi qəlbdən təbrik edirik! Sizə cansağlığı, uzun və mənalı ömür, sevinc, xoşbəxtlik və ədəbi yaradıcılığınızda nailiyyətlər arzulayırıq! Allah - Taala Sizi pənahında saxlasın! Amin!***

***Hörmətlə: Bolnisi Mədəniyyət Mərkəzinin və "Ümid" qəzetinin əməkdaşları.***

**QARA GÜNÜN QAZANCI**

Gün işığı ah çəkənin olammaz,
Daha gündüz ağ işıqlı kələkdi.
Gecə düşdü…
Şükür sənə, Yaradan,
Gecə ki var – qaragözlü mələkdi.

Gecə ki var – qaragözlü mələkdi,
Quldurlardan, quldarlardan ayrıca.
Hamı yatır…
Tanrı məni oyadır,
Ah çəkirəm – söz düzülür uc-uca.
Gecə düşür…

Halal fikir, halal söz,
Haram qonmaz mən oturan budağa.
Şükür, Tanrım, ac deyiləm mayadan –
İki ana mayalamış uşağam.

Gecə ki var – qaragözlü mələkdi,
Şeir ki var – qara günün qazancı.
Kim gərəksə, Tanrı özü oyadıb,
Kimin üçün boğaz yırtır azançı?..

**TƏK QALANDA…**

Tək qalanda iman gələr bəndəyə,
Tənha adam şeytana bir yağıdı.
Sol çiynində qələmkeşə iş vermə,
Gözəl olan iki çiynin sağıdı.

Yığnaq yerdə ceynənən söz qoxuyar,
Vaxtı ötüb, kif bağlamış mal kimi.
Öz şükrünü zikr içində oxuyar
Şirindilli bəndə sussa lal kimi.

Tənha adam şeytan üçün bəladı,
Tək qalanın sirdaşıdı Yaradan.
Yığnaq yerdə hər şey ala-buladı,
Yığnaq yerdə ağ seçilməz qaradan.

Adamsansa, alim edər dərd səni,
Yamanlıq da yaxşılığa yozular.
Yığnaq yerdə bəndə tutan işlərin
Dörddə üçü sol çiyində yazılar.

Zikr içində kamil olan bəndələr
İrfan adlı yapıncıya bürünər.
Tənha adam təkliyinnən vaxt gələr
Eyni anda yeddi yerdə görünər…

Ümid
"იმედი" – დამოუკიდებელი გაზეთი Müstəqil qəzet



# Dahiləri toppuş xanımlar dünyaya gətirirlər

Hamiləlik zamanı qadınlarda piy qatının formalaşması təsadüfi deyil. Bu piy qatının missiyası uşağın beynini qorumaqdır.

Pittsburq universitetinin alimləri uşaqların intellekti ilə analarının bədənlərindəki piy qatının əlaqəsini araşdırıblar. Nəticələr, doğrudan da, heyrətamiz olub. Sən demə, toppuş qadınlar daha ağıllı uşaqlar dünyaya gətirirlər.

## Vaqif Səmədoğlu vəfat etdi

*Azərbaycanın xalq şairi, ictimai xadim Vaqif Səmədoğlu uzun sürən xəstəlikdən sonra 76 yaşında vəfat edib.*

*Allah rəhmət eləsin!*



*Allahım,*
*Nə var, nə yox?*
*Məndən nə xəbər var?*
*Gecələri özüm sayaram,*
*Üzümə açılacaq neçə səhər var?*
*Bəyənəcəksənmi məni,*
*Bəndəni hansı gözlə görəcəksən?*
*Allah, özüm gəlim,*
*Ya kimisə göndərəcəksən?*

**Vaqif Səmədoğlu**

## Rənglər orqanizmimizə necə təsir edir?

Qırmızı rəng iş qabiliyyətini artırır.

Narıncı rəng həyəcan yaradır.

İlham qaynağı sayılan sarı rəng insana nikbin əhval-ruhiyyə bəxş edir.



Sakitləşdirici rəng olan yaşıl əməkdaşlığa, comərdliyə bir növ çağırışdır.

Mavi rəng barışı, sevgini ifadə edir.

Özünə etibarı təmsil edən bənövşəyi rəng xoş əhvala səbəb olur.

Ağ rəng enerji sistemini tarazlaşdırır, yaradıcılıq qabiliyyətini ortaya çıxarır və inkişaf etdirir.

Qara, boz və qəhvəyi rəng ağır bir enerjiyə malikdir. Qara rəngin tək rəng kimi istifadə edilməsi məsləhət deyil.

Qəhvəyi rəng ictimai tarazlığı və cəmiyyət içində rahatlığı təmin edən təsirə malikdir.

## Məhəmmədəlinin əlcəkləri 1 milyon dollara satılacaq



Əfsanəvi boksçu Məhəmmədəlinin ilk dəfə çempionluq qazandığı zaman əllərində olan əlcəklər auksiona çıxarılacaq.

Auksion 21 fevral tarixində Nyu-Yorkda, "Heritage Auctions" mərkəzində keçiriləcək.

Əlcəklərə qoyulan ilkin qiymət 1 milyon dollardır.

Ağır çəkidə çıxış edən Məhəmmədəli bu əlcəklərlə 25 may,1965-ci ildə Soni Listonla döyüşə çıxmışdı. O vaxt o, özünə hələ müsəlman adı götürməmişdi. Kassius Kley adı ilə çıxış edirdi.

## Keçəlliyə səbəb olan amillər



Saçlar insanın orqanizmində vacib rol oynamasa da, görkəminə təsir edir.

Bir çoxları isə keçəllikdən əziyyət çəkir. Təkcə qadınların yox, kişilərin də əhvalı onların saç düzümündən hiss olunur. Əhvalının hər zaman xoş olmasını istəyirsənsə, saçlarına sahib çıx. Saçlar niyə tökülür?

Keçəlliyə səbəb olan amillərdən siqareti və hormonal aktivliyi göstərmək olar. Bundan başqa yay-qış deməyib, başını yuyub, jele sürtüb, darayıb, qızların xoşuna gəlməkdən ötrü qışın şaxtasında dona- dona küçəyə çıxırsan. Valideynlərinin «başına papaq qoy!» kimi iradları sənə təsir etmir. Düşünürsən ki, bu sözləri ancaq balaca uşaqlara demək lazımdır. Amma unutma ki, yayda və qışda papaqsız gəzmək zamanla keçəlləşməyə gətirib çıxarır. Çünki günəşin ultrabənövşəyi şüaları saçları yandırır, qışdasa şaxta saç soğanaqlarını dondurub, tük follikulasını dağıdır.

## İslanmış mobil telefonu xilas etməyin yolları:

1. Telefonu sudan çıxarın və əlinizdə nə varsa onu qurudun.
2. Telefonu açmayın. Açsanız qısaqapanma nəticəsində telefon həmişəlik işləməyə bilər. Əgər sudan çıxardıqdan sonra telefon açıqdırsa, bağlayın.



3. Batareya və SIM-kartı çıxarın. Bundan sonra salfetlə telefonun içini qurudun.
4. Mümkün qədər çox qurulayın.
5. Telefonu bir qaba (şüşə və ya plastik) qoyun. Üzərini düyü ilə örtərək günəş altında saxlayın.
6. 24 saat gözlədikdən sonra telefonu açın. Düyü nəmi özünə çəkdiyi üçün cihazdakı suyu da çəkir.
7. Düyü yoxdursa, telefonu salfetin üzərinə qoyaraq günəş altında saxlayın.
8. Günəşin çox zərər verməməsi üçün ventilyatordan istifadə edə bilərsiniz.

**Bolnisi Mədəniyyət Mərkəzi**
**Təsisçi:**
***Fikrət MƏMMƏDOV***
**Məsləhətçi:**
***Dünyamalı KƏRƏM***
*Gürcüstanın Əməkdar jurnalisti*

**Redaktor:**
***Əlixan YƏHYAOĞLU***
**Texniki redaktor:**
***Anar TAMI***

**Redaksiyanın ünvanı:**
**Bolnisi şəhəri, S.S.Orbeliani k.101**
**E-mail: umidbmm@inbox.ru**
**http://www.facebook.com/bolnisimedeniyyetmerkezi**
**Mob: (+995) 558 33 78 66**
**(+995) 551 19 21 85**

**Qeydiyyat şəhadətnaməsi:**
**22.12.2014. 425359872**
**Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər**
**Tiraj:2000**
**Qəzet pulsuz yayımlanır**